Əbdülhəmid əbu Süleyman

# İKİ QANUN ARASINDA İNSAN

Özünü və başqalarını dərkdə
Quran dünyagörüşü

Əbdülhəmid əbu Süleyman

# İKİ QANUN ARASINDA İNSAN

Özünü və başqalarını dərkdə
Quran dünyagörüşü

Beynəlxalq İslam Fikri İnstitutu

İDRAK

Bakı - 2018

© Beynəlxalq İslam Fikri İnstitutu, 2018
© "İdrak" İctimai Birliyi, 2018

The International Institute of Islamic Thought (IIIT)
500 Grove St., Suite 200, Herndon, VA 20170
www.iiit.org

The International Institute of Islamic Thought (IIIT) (UK)
P.O. Box 126, Richmond Surrey. TW9 2UD, United Kingdom
www.iiituk.com

"İdrak" İctimai Birliyi
AZ1100, Mirəli Seyidov 3138, D korpusu, 1-ci mərtəbə
www.idrak.org.az

ISBN

Tərcüməçi, redaktor və şərhlərin müəllifi:
Fəlsəfə üzrə fəlsəfə doktoru Elvüsal Məmmədov

Bədii və texniki tərtibat:
Həsən Həsənov

Kitab Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin
icazəsi ilə nəşr olunur

Digər nəşrlərimiz:

# Giriş

İslam dünyagörüşünün aşkarlığı ümmətin doğru istiqamətə yönəlməsinin məhək daşıdır. Qurani-Kərim isə bu dünyagörüşündən ilham almağın başlıca mənbəyidir. Bu dünyagörüşü olmadan ümmət özünü, məqsədini dərk edə bilməz. Özünü dərk etmədən, aşkar dünyagörüşü olmadan ümmətin inkişaf tapması, potensialından düzgün istifadə edib yenidən formalaşması mümkün deyildir.

Dünyagörüşünün aşkarlığı və əsas prinsiplərə bələd olmaq özünü və başqalarını dərk etməyin, onlarla münasibətin əsaslarını öyrənməyin başlıca şərtidir.

Ümmət dünyagörüşünün aydın olmamağından, özünü dərk etməməkdən əziyyət çəkmişdir. Bu isə öz növbəsində toranlığa, çapalamaya, başqalarını kor-koranə şəkildə yamsılamağa səbəb olmuş, ümmətin gücünü zəiflətmiş, əzmkarlığını yox etmişdir.

Quran dünyagörüşü vasitəsilə kainatın universal anlayış və prinsipləri haqqında düşündükdən sonra kainata, insana, onların münasibətlərinə, islam və ümmətin mövqeyinə dair daha aydın, əvvəllər ağlıma gəlməmiş təsəvvürlərə sahib olmuşam. Həmçinin Quran dünyagörüşü mənə imkan vermişdir ki, Qərbi, kimliyini, əsas prinsiplərini, bizimlə oxşar və fərqli tərəflərini öyrənim. Bununla da, mən əvvəllər başa düşülməsi və həll

edilməsi qəliz görünən bir çox məsələnin konseptual həllinə nail oldum.

Bunun üçün qələmi götürüb düşüncələrimi kağıza köçürmək, oxucuların, ümmətin mütəfəkkirlərinin diqqətinə təqdim etmək qərarına gəldim. Qoy onlar belə mühüm sahədə Quran dünyagörüşünün əsas prinsipləri barədə daha dərindən düşünsünlər, daha çox məlumata sahib olsunlar. Bununla da, ümmət yenidən ayağa qalxa, islam mədəniyyəti təkmilləşə, mədəni-islahatçı potensialı üzə çıxa, dövrün problemlərinə sinə gərə, bəşəriyyətin haqqa, ədalət və sülhə üz tutmasına şərait yarada bilər.

Aydın dünyagörüşü və özünüdərk olmadan, mədəniyyət təkmilləşmədən, kor-koranə yamsılamanı dayandırmadan, ümmətin oğullarını psixoloji xəstəliklərdən, gerilikdən xilas etmədən, "özgə"ni – Qərbi, onunla aktiv ünsiyyət yollarını başa düşmədən yenilənmə, güclənmə, islahatçılıq, dünya mədəniyyətində ümmətin rolunu geri qaytarma, onu islah edib doğru formada istiqamətləndirmə mümkün hala gəlməyəcəkdir.

Ümid edirəm ki, kitabçamız və ondakı təşəbbüs və cəhdlər mütəfəkkirlərin diqqətini özünə cəlb edəcəkdir. Edəcəkdir ki, ümmətin gümrahlığını özünə qaytarması, doğru yola çıxmağı, missiyasını icra etməsi, insanı və mədəniyyəti düzgün tərəfə istiqamətləndirməsi mümkün olsun.

Uğur Allahdandır.

Əbdülhəmid əbu Süleyman
5 sentyabr 2002-ci il

## Kamil fəlsəfə yəqinlik deməkdir

İnsan dünyaya intellekti ilə gəlir. İntellekt vasitəsilə Allah insanı digər məxluqatdan fərqləndirmişdir. Bu barədə Quranda deyilir:

"(Allah) Adəmə bütün adları öyrətdi" (əl-Bəqərə, 31).

Fikrimcə, burada nəzərdə tutulan şey Adəmə şeylərin adlarının tələffüzünün öyrədilməsi deyildir. Çünki insanın mövcud ibtidai halı və bacarığı buna imkan vermir. Əks halda bu o mənaya gələrdi ki, Adəm özünün ibtidai mədəni vəziyyətində[1] şahidi olmadığı şeylərin Qiyamətədək bütün dillərdə işlədiləcək adlarını öyrənmişdi. Bu, baş verəcək şey deyildir və belə bir şeyə bəşər tarixində rast gəlinmir.

Mənasını başa düşmədən bir sözü deməyin, tələffüz etməyin əhəmiyyəti yoxdur. Söhbət sözlərin mənasını, funksiyalarını bilməkdən gedir. Burada nəzərdə tutulması mümkün sayılan məna insanın dərk etmək, sözləri ehtiva edən ümumi şeyləri bir-birindən ayırmaq, müxtəlif kateqoriyalarda (növ, cins, fəsilə) qruplaşdırmaq (məsələn, müxtəlif formalı stullar, evlər, heyvanlar və s.) bacarığıdır. Bu şeylər forma, rəng, tərkib və təzahür baxımından bir-birindən fərqlənib, bir

---

[1] Atamız Adəmin imanı, Allahla əlaqəsi vicdan məsələsi olub, maddi-mədəni məsələ deyildi. Bu səbəbdən səhrada yaşayan adi, bədəvi insan dünyanın sivil paytaxtlarında yaşayan təkəbbürlü məşhur alimlərdən, xüsusən allahsız olanlarından daha üstün imana, daha geniş qəlbə, vicdana sahibdir.

növ digərindən seçilsə də, ümumi kateqoriyaya aid olub, ortaq cəhətlərə malikdir. Məsələn, ofis masası, qonaq masası, avtomobildaxili masa, böyük masa, kiçik masa, taxta masa, metal masa, plastik masa, müxtəlif formalı və rəngli masalar mövcuddur. Amma bütün bu adlarla ifadə olunan ümumi əşya vardır: istirahət və oturma predmeti. İnsanın dərketmə, fərqləndirmə və seçmə bacarığı bilmənin, öyrənmənin, ideyaların, kəşflərin, sözyaratmanın əsasıdır. Fikrimizcə, dərketmə, predmetləri adlandırma və adlardan istifadə qabiliyyəti insanın mədəni bacarığının əsasını əmələ gətirir. İnsan işarələr formalaşdıra bilməsəydi, yazmağı da, bildiklərini çoxaltmağı da, yer üzündə xəlifəlik etməyi də bacarmazdı. Quranda söhbət açılan "adların öyrədilməsi" dedikdə məhz bu nəzərdə tutulur.

Allahın insana bəxş etdiyi ağıl və dərketmə bacarığı düşünməyi, araşdırmağı, mühakimə etməyi, fikirlər səsləndirməyi, mədəni yaradıcılığı sistemləşdirməyi, qurub-yaratmağı, düzəldib-qurmağı, seçməyi zəruri edir. Qurub-yaratmaq həyatın mənasını başa düşməkdə, məsuliyyətə sahib çıxmaqda insana kömək edir.

İnsan oğlu özünə mahiyyəti, dünyadakı mövcudluğunun səbəb və qayəsi, dünyanın mənbəyi, ondakı ayrı-ayrı elementlərin, münasibət və müxtəlifliyin mənası, onunla əlaqənin məzmunu, insanlar və dünyanın taleyi haqqında suallar verməlidir. Bu cəhət insandakı mənəvi tərəfin əsasını əmələ gətirir, insan həyatının mühüm tərəfini təşkil edən dinin mənbəyi hesab edilir. Yuxarıdakı suallar məhz bu cəhətdən irəli

gəlir və bu tədqiqatımız başlanğıcını məhz ondan götürür. Problem özünün gizli və mürəkkəb cəhətləri ilə, əsrlər keçsə də, mütəfəkkir və filosofları düşündürür. Məsələn, Allahın yer üzünü kimə miras buraxması probleminə müxtəlif inanclarda, dinlər və fəlsəfi təlimlərdə münasibət bildirilmişdir. Bu səbəbdən yer üzünə peyğəmbərlər göndərilmişdir.

Aydın idi ki, ağlı, idrak və məntiq baxımından məhdud varlıq olan insan universalı, mütləq və namütənahini qavraya bilməz. Odur ki insanın həyatın məchul tərəflərini işıqlandıracaq, məqsədə gedən yolda ona istiqamət verəcək, daxilində əmin-amanlıq və xatircəmlik yaradacaq, varlığının mənasını, mövcudluqdakı məqsədi, mövcudluğunun sonunu, aqibətə münasibəti və xoş aqibəti ona izah edəcək əsaslara ehtiyacı vardır. Əsrlər boyu dinlər, peyğəmbərliklər və inanclar bu işdə hidayət mənbəyi, insan üçün əmin-amanlıq və xatircəmlik məxəzi olmuşdur.

İnsanların inanıb bir-birlərinə miras buraxdıqları inanc və dinlərə baxmayaraq, ağıl və Allahın bəxş etdiyi qavrama, dərk və öyrənməyə can atan fitri istək zəruri edirdi ki, insan oğlu hər şey haqqında özünə sual versin, düşünsün, müşahidə aparıb mühakimə etsin. Vicdanla birləşən fitri imanla yanaşı, ağıl varlığın mənbəyi, mənası, məqsədi və aqibətini axtarıb-araşdırmışdır. Bu suallar insan ağlı və idrakı çərçivəsində fəlsəfə və filosofların diqqət mərkəzində olmuşdur.

Bu mənada fəlsəfə məntiqi idrakın təbiətini, hissi bilik axtarışını əks etdirir. İnsan (həmçinin mütəfəkkir və filosof) həm bu problemin

mahiyyətini, həm də bu məsələyə münasibətdə məntiq və idrakının məhdud olduğunu dərk edərsə, araşdırmaları mümkün biliklərin «nur»una aparıb çıxaran, daha çox əmin-amanlıq və xatircəmlik yaradan vasitə rolunu oynaya bilər. Bu təqdirdə rasional biliklər iman və vəhymənşəli biliklərə zidd olmayacaqdır.

## Elm yetkin olmalıdır

Mələklərdəki doğru bilik iman və xatircəmlik doğurmuşdu. Onlar Allahın ruh, ağıl və bilik verməsindən əvvəl mövcud olan «bioloji» insan haqqında bildiklərinin təsiri altında onun dağıtma, zülm və düşmənlik xüsusiyyətlərini dilə gətirmişdilər. Amma Yaradıcının – mütləq bilik və qüdrət sahibinin cavabı onları qane etmiş, imanlarını gücləndirmişdi:

«(Ya rəsulum!) Sənin rəbbin mələklərə: "Mən yer üzündə bir xəlifə (canişin) yaradacağam", – dedikdə (mələklər): "Biz Sənə şükür etdiyimiz, şəninə tariflər dediyimiz və Səni müqəddəs tutduğumuz halda, Sən orada (yer üzündə) fəsad törədəcək və qan tökəcək bir kəsmi yaratmaq istəyirsən?" – söylədilər. (Allah onlara:) "Mən bildiyim şeyi siz bilmirsiniz!" – buyurdu.

(Allah Adəmi yaratdıqdan sonra) Adəmə bütün şeylərin adlarını öyrətdi. Sonra onları (həmin şeyləri) mələklərə göstərərək: "(İddianızda) doğrusunuzsa, bunların adlarını Mənə bildirin!" – dedi.

Onlar: “Sən paksan, müqəddəssən! (Bütün eyib və nöqsanlardan kənarsan!) Sənin bizə öyrətdiklərindən başqa biz heç bir şey bilmirik. (Hər şeyi) bilən Sən, hikmət sahibi Sənsən”, – dedilər. « (əl-Bəqərə, 30-32).

Natamam biliyin aldatdığı və Allahın insan oğluna bəxş etdiyi müsbət xüsusiyyətləri dərk etməsinə əngəl yaratdığı İblisə gəlincə, vəziyyəti təkəbbürlü, allahsız «alim» cahillərin vəziyyətinə oxşayır. Bu «alimlər» elə zənn etmişlər ki, natamam bilikləri ilə həqiqəti öyrənmiş, səbəbləri üzə çıxarmışlar. Məhz bu həm onların, həm də İblisin yolunu azmasına, nankorluq etməsinə, təkəbbürlənməsinə, haqqı danmasına səbəb olmuşdur:

«(Ya Peyğəmbər!) Xatırla ki, o zaman sənin rəbbin mələklərə belə demişdi: “Mən palçıqdan bir insan (Adəmi) yaradacağam.

Mən onu tamamlayıb (insan şəklinə salıb) Öz ruhumdan üfürən kimi, ona (hörmət əlaməti olaraq) səcdə edin!”

Buna görə də mələklərin hamısı birlikdə (Adəmə) səcdə etdi;

Yalnız İblisdən başqa! O (səcdə etməyə) təkəbbür göstərdi və kafirlərdən oldu.

(Allah) buyurdu: “Ey İblis! Sənə mənim Öz əlimlə yaratdığıma səcdə etməyə nə mane oldu? Təkəbbür göstərdin, yoxsa özünü yuxarı tutdun?”

(İblis) dedi: “Mən ondan daha yaxşıyam (daha üstün, daha şərəfliyəm). Çünki Sən məni oddan, onu isə palçıqdan yaratmışsan!» (Sad, 71-76);

«(Allah iblisə): “Mən sənə əmr edəndə sənə səcdə etməyə nə mane oldu?” – deyə buyurdu.

(İblis: ) “Mən ondan daha yaxşıyam (üstünəm), çünki Sən məni oddan, onu isə palçıqdan yaratdın!” – dedi.

(Allah) buyurdu: “Oradan (Cənnətdən) aşağı en. Orada sənə (Allahın əmrinə) təkəbbür göstərmək yaraşmaz. (Oradan) çıx, çünki sən alçaqlardansan!» (əl-Əraf, 12-13).

İblis güman edirdi ki, özünün yaradıldığı dağıdıcı, hərəkətli «yuxarı» alov – alov materiyası insanın xəlq edildiyi hərəkətsiz, «aşağı» torpaqdan üstündür. Bu gümanı onu təkəbbürə sürükləmiş, ilahi elm, qüdrət və hikmət ilə müqayisədə özündəki məhdudluq və naqisliyi, Allahın ruh, ağıl və şüur verməklə insan oğlunu fərqləndirdiyini görməyinə mane olmuşdu. İnsana idrak və məsuliyyət bəxş etmiş, onda «yuxarı» ruhla «aşağı» torpağı birləşdirmiş Qadir Allahla özünü müqayisə etməmək – məhz bu korluq, yekəxanalıq və cahillik İblisi yolundan azdırmış, haqqı görməsinə əngəl yaratmışdı.

Bu səbəbdən bitkin və yol göstərən elm düşünməyə, xatircəmlik və imana aparıb çıxarır. Fitrəti sorğu-sual etmək, öyrənib barəsində düşünmək obyektiv biliklərlə, qənaətbəxşlik və iman xatircəmliyi doğuran «sərhədlər»i başa düşməklə nəticələnir. Bilməmək və düşünməməyin imana aparan ən üstün yol olmağı iddiası doğru deyildir. Həmçinin araşdırmaların, mühakimə və düşünmənin küfr və allahsızlığın səbəbi rolunu oynaması qəbuledilməzdir. Bu o halda baş verir ki, insan özünü dərk etmir, bilikləri və bilmə qabiliyyətinin məhdud olduğunu unudur, Universala münasibətdə elm və məntiqin kafi olmadığı-

nı yadından çıxarır. Halbuki kainatdakı hər şey Onun əzəməti və qüdrətinə, misilsiz yaradıcılığına dəlalət edir. Həmçinin cəhalət və dərrakəsizliyin müxtəlif formaları ağılı, düşüncəni ləğv etdikdə qorxu, həqiqətdən qaçma və iman zəifliyi meydana çıxır. Çünki iman inamdır, qənaətbəxşlik və xatircəmlikdir. Bu, hər bir insanın vəziyyətindən, bilikləri və düşünmə qabiliyyətindən asılıdır. Bütün bunlar, son nəticədə, bir tərəfdən, Yaradıcının əzəmətini, misilsiz yaradıcılığını, namütənahi qüdrətini, digər tərəfdən isə bəşəri bilik və məntiqin məhdud olduğunu dərk etməkdən asılıdır. Səhradakı bədəvinin ibtidai və bəsit bilikləri şəhərlərdəki alim və mütəfəkkirlərin bildiklərindən fərqlənir. Amma onlar hamılıqda dərk edirlər ki, bilikləri məhduddur, Yaradıcı isə namütənahi və əzəmətlidir.

## Bitkin elm iman doğurur

Kainatı öyrənən elm və bilik sahələri davamlı şəkildə inkişaf edir, yaradılış və Yaradıcının əzəmətinin dərk etmək üçün qarşımızda geniş imkanlar açır. Nəticədə daha çox düşünməyə zəmin yaranır, daha çox düşünmək isə könüllərə xatircəmlik aşılayan, imanı gücləndirən qənaətbəxşlik doğurur. Təbii ki, bütün bunlar həqiqəti dəyişmir: insan oğlunun dərketmə və məntiq bacarığı məhdud, Yaradan isə əzəmətli və qüdrətlidir!

Dünyada ən mühüm həqiqət insanın mövcudluğudur. Amma naqis bəşəri məntiq bizdə bizim

əslində mövcud olmamağımız qənaətini formalaşdırmalıdır. Çünki insan məntiqi və dünyasında səbəbsiz heç nə yoxdur. Bu məntiqə görə, insan əslində mövcud olmamalı idi. Konkret və empirik insan məntiqi deyir ki, heç nədən nə isə yarana bilməz. Bu da insanın yoxluğunu labüd edir. İnsan məntiqi və idrakı iddia edir ki, başlanğıcda yoxluqdan nə isə yaranmayıb. «Materiya əvvəldən bu cür mövcud olmuşdur» iddiası mənasızdır. Çünki insan mövcuddur, – bu, insanın dərk etdiyi, bütün varlığı ilə qavradığı ilk və ən mühüm həqiqətdir. Aydın məsələdir ki, bunda yoxluqla varlıq arasında ziddiyyət vardır. Problem varlıqda deyil, bunda gizlidir. Çünki mövcudluq təcrübi olaraq həqiqətdir. Deməli, məhdudiyyət və çatışmazlıq insan oğlunun məntiqi və dərk etməsindədir. Şübhə yox ki, mövcudluq insanın məhdud məntiqinə tabe deyildir; mövcudluq bəşəri məntiqdən üstün Ali Məntiqə tabedir. İnsan həyat səfərini başa vurub Ali Aləmə köçdüyündə bunu dərk edəcəkdir. O Ali Aləmə ki, orada:

«Gözün görmədiyi, qulağın eşitmədiyi, ağılın xəyalına gətirmədiyi şeylər vardır»[1];

«Lakin onlara haqq (Quran) gəldikdə onu yalan saydılar. İndi onlar dolaşıqlıq (təşvış) içindədirlər.

Məgər onlar başlarının üstündəki göyə baxıb onu necə yaratdığımızı, necə bəzədiyimizi və orada heç bir yarıq olmadığını görmürlərmi?!

---

[1] Hədisi İmam Əhməd rəvayət etmişdir. "Müsnəd", hədis № 10172.

Eləcə də yeri necə döşədiyimizi (hamarlayıb düzəltdiyimizi), orada möhkəm duran dağlar yaratdığımızı, hər cür gözəl növdən (meyvə) yetişdirdiyimizi görmürlərmi?!

(Bütün bunlar rəbbinə tərəf) dönüb qayıdan hər bir bəndə üçün ibrət dərsi və öyüd-nəsihət olsun deyə etdik.

Biz göydən bərəkətli su endirdik, sonra onunla bağlar və (arpa, buğda və s. kimi) biçilən taxıl dənələri yetişdirdik.

Həm də tumurcuqları (salxım-salxım) bir-birinin üstünə düzülmüş, hündür xurma ağacları (bitirdik) –

Bəndələrə ruzi olsun deyə! Biz onunla (o su ilə) ölü bir məmləkəti cana gətirdik. (Qəbirlərdən dirilib) çıxmaq da belədir!

Onlardan (Məkkə müşriklərindən) əvvəl Nuh tayfası, Rəss əhli, Səmud (qövmü peyğəmbərləri) təkzib etmişdi.

Ad (qövmü), Firon (əhli), Lut qardaşları;

Əykə əhli və Tübbə qövmü – bunların hamısı peyğəmbərləri təkzib etdi və Mənim də onlara vəd etdiyim (əzab) gerçəkləşdi.

Məgər Biz ilk yaradılışdan acizmi qaldıq?! Xeyr! (Eləcə də qiyamət günü ölüləri diriltməkdən aciz qalmayacağıq!) Onlar yeni yaradılış (təkrar dirilmə) barəsində şəkk-şübhə içindədirlər!

And olsun ki, insanı Biz yaratdıq və nəfsinin ona nə vəsvəsə etdiyini də Biz bilirik. Biz ona şah damarından da yaxınıq!

Xatırla ki, (insanın) sağında və solunda (onun bütün əməllərini) təsbit edən (qeydə alan) iki mələk oturmuşdur!

Dediyi hər sözü (yazmaq üçün) onun yanında hazır durub gözləyən (iki mələk) vardır!

Ölüm (ölüm bihuşluğu), həqiqətən, gələcəkdir. (Ey insan!) Bu sənin qorxub qaçdığın şeydir!

(Öləndən sonra yenidən dirilmək üçün) sur çalınacaqdır. Bu vəd olunmuş gündür (əzab günüdür)!

Hər bir kəs (rəbbinin hüzuruna) bir sürüyən (sürüyüb məhşərə gətirən) və bir də şahidlə (iki mələklə) gələcəkdir.

(Ona belə deyiləcəkdir:) "Sən (dünyada) bundan qafil idin. Artıq bu gün gözündən pərdəni götürdük. Sən bu gün sərrast görürsən!" (Qaf, 5-22).

Problemi izah etmək üçün tanış misala toxunaq. Bilirik ki, pişiklərin və ya digər heyvanların zəka səviyyəsi riyazi tənlikləri başa düşməyə onlara imkan vermir. Bu o demək deyil ki, pişik pişik olaraq kütbeyin və axmaqdır. Həmçinin bu o mənaya gəlmir ki, pişiklərin və heyvanların dərk edə bilmədiyi riyazi tənliklər mövcud olmayan şeylərdir. Əksinə, bu o deməkdir ki, pişiklərin dərketmə və məntiq qabiliyyəti insanla müqayisədə məhduddur. Deməli, bu tənliklər heyvanlar və pişiklərdəkindən daha üstün idrak və məntiq səviyyəsinə uyğundur. Yaradanın elmi və hikməti ilə müqayisədə yaradılanın elmi və hikmətinin məhdud olmağını İblisin inkar etməsi vaxtı ilə onun və indiki dövrdə isə bəzi allahsız və lovğa insanların yol verdiyi mənfur yekəxanalıq ucbatındandır.

Həqiqət budur ki, hər dəfə daha ali məntiq səviyyəsi kəşf edildikdə şeylər və hadisələrdə

əvvəllər müşahidə edilməyən hallar və xassələr meydana çıxır. Adi baxışla görünən bir çox elmi həqiqət, maddələrdəki xassələr, imkanlar və potensial elektron mikroskopları ilə tədqiq edildikdən sonra fərqli məzmun kəsb etmişdir. Artıq minerallar hərəkətsiz və sönük hesab edilmir. Atom ölçüsündə mineral özünü hərəkət edən cisim kimi aparır. Maddənin minerallığı və sıxlığı artdıqca ondakı atomların hərəkəti daha yüksək olur. Materiya atom və hidrogenlərinin partlaması ölçüsündə "yox olmayan və yenisini yaratmayan" hesab olunmur; əksinə, o bu ölçülərdə özünü "yox olan və yenisini yaradan" kimi aparır. Həmçinin bütün dünyanın meşələrini yandırmaqla alınması mümkün olan istilik dərəcəsini indiki dövrdə az miqdarda yandırıcı maddələrdən almaq olur. Bütün bunlar və digər faktlar bir daha göstərir ki, insan oğlunu elmi, məntiqi Allahınkı ilə müqayisədə məhduddur. O Allahınkı ilə ki, mütləq qüdrət sahibidir, insanı və kainatı son dərəcə dəqiqliklə yaratmışdır. Düşüncə və məntiq, elm səviyyəsi nə olursa-olsun, insan bunu inkar edə bilməz:

"(Ya Peyğəmbər! O kafirlərə) de: "Bir söyləyin görək, əgər (bu Quran) Allah dərgahındandırsa və sonra siz də onu inkar edibsinizsə, (sizin kimi haqdan) uzaq bir nifaq (ədavət) içində olan kəsdən (haqq yolu) daha çox azmış kim ola bilər?!

Onun (Quranın) haqq olduğu onlara (müşriklərə) bəlli olsun deyə, Biz öz qüdrət nişanələrimizi onlara həm xarici aləmdə (üfüqlərdə, kainatda, göylərin və yerin ətrafında), həm də onların öz

daxilində mütləq göstərəcəyik. (Ya Peyğəmbər!) Məgər rəbbinin hər şeyə şahid olması (sənin dediklərinin doğruluğuna) kifayət deyil?!" (Fussilət, 52-53);

"Əvvəl də, axır da, zahir də, batin də Odur. O, hər şeyi biləndir!" (əl-Hədid, 3).

Bundan əvvəl "İbn Həzmin zahiri görüşlərini başa düşmək" adlı məqaləmizdə[1] islamın vəhy dini olmağına inamın əsaslandığı başlıca səbəbləri izah etmişdik. Hələ Məkkədə orta məktəbdə oxuyarkən bu yazını qələmə almışdım. Sahib olduğum dəyişməz prinsiplər mənə qorxu və tərəddüd hiss etmədən bir çox problemi yenidən öyrənmək, həqiqəti üzə çıxarmaq istəyi bəxş etmişdi.

Könlümə hakim kəsilən, düşüncələrimə istiqamət verən, davranışlarımı düzəldən bu imanın sayəsində maraqlandığım suallarla, beynimdə cərəyan edən mülahizələrlə üz-üzə gəlməkdən çəkinmirəm. Heyrətlənsəm də, məsələlərdəki gizli tərəfləri dərk etməkdə çətinlik çəksəm də, peyğəmbərliyə imanım dəyişmir, Yaradıcının əzəmətini, misilsiz yaradıcılığını, qüdrət və hikmətini dərk etməyimdə təbəddülat baş vermir. Bununla yanaşı, mən bir insan olaraq, özümün, məntiq qabiliyyətim və biliklərimin məhdudluğunu dərk edirəm. Bu üzdən suallarımda, düşüncələrimdə, heyrətimdə Allaha, peyğəmbərliklərə, qeybə imana zidd düşən heç nə görmürəm; əksinə, suallarım, düşüncə və araşdır-

---

[1] "Təcdid" jurnalı, Malayziya Beynəlxalq İslam Universitetinin nəşrləri, № 2, 1998, səh. 166.

malarım, bəzən də təəccüblənməyim Allaha imanımı möhkəmləndirən vasitələr kimi çıxış edir, Onun qüdrəti, elmi və hikmətinin böyüklüyünə əminliyimi artıran səbəblər rolunu oynayır. Eyni vaxtda, bütün bunlar acizliyimin, bilməməyimin fərqinə vardığımı göstərir, dərketmə və məntiq bacarığımın məhdudluğuna dəlalət edir.

Bu yazı əziz oxucuları düşüncələrimi məşğul edən mürəkkəb problemlərdən birinə cavab axtarışına ortaq etmək istəyimin nəticəsidir. Bu problemi başlanğıcda dərk edib, məntiqimlə qavraya bilmirdim. İndi isə Allahın mənə bəxş etdiyi ağıl, məntiq, təfəkkür, mühakimə bacarığı ilə bu məsələdə elə bir məsafə qət etmişəm ki, həqiqəti öyrənmək və üzə çıxarmaq istəyən fitrəti qane edir.

## Problemin qoyuluşu

Bu məqalədə tədqiqat obyekti seçilən sual diqqətimi çəkən, düşüncələrimi əsir edən bir təzahürlə əlaqəlidir. Mən özümə bu barədə tez-tez sual verirdim. Söhbət həyatın davamlılığı (жи́зненный ци́кл) problemindən gedir. Belə ki bəzi canlılara yaşamaq və sağ qalmaq üçün "hücum etmək" və "parçalamaq" lazım gəlir. Qərb fikrində bunu "cəngəllik qanunları", "güclünün yaşamaq uğrunda mübarizəsi" adlandırırlar. Güclü yırtıcı heyvanlar və quşlar yaşamaq üçün digər canlıları, xüsusən zəif olanlarını parçalamalıdırlar. Məsələn, şir antilopu, canavar qoyunu, tülkü dovşanı, şahin göyərçini parçalamalıdır. İnsana gəlincə, həyatı boyu neçə min ceyran, dovşan,

inək, göyərçin, toyuq "parçalayır"? Bəşəriyyətin il boyu "parçaladığı" canlıların sayı neçə milyarda çatır?

Müxtəlif canlıların həyatda qalması üçün başqa canlıları parçalaması nə üçün zəruridir? Bu sualı məndə bir dovşanın qorxu və ağrı-acı ifadə edən və heç vaxt unutmayacağım çığırtısı yaratmışdı. Bu o vaxt baş vermişdi ki, pişik dovşanın üzərinə hücum edərək dırnaqları və dişlərini onun boğazına keçirmişdi. Dovşandan qorxu və ağrı-acı ilə dolu çığırtı qopmuşdu. Bildiyimiz kimi, dovşanlar səssiz-səmirsiz gəzən, əhliləşdirilmiş ev heyvanlarıdır.

Əlbəttə ki, dərhal ağlımıza həyatın daimiliyi, növlərarası tarazlığın zəruriliyi və bunda insan oğluna xidmət edən, həyatı qoruyub davam etdirən fəaliyyətin öz əksini tapmağı gəlir. Bu cavab bizə o halda ağlabatan görünər ki, sözügedən tarazlıq yer üzündə müşahidə etdiyimiz tənzimləməyə söykənən həyatın daimiliyi əsasında baş versin. Sual Allahın qeyri-məhdud qüdrəti ilə əlaqəlidir. Əgər Allah istəsəydi, bu dilsiz-ağızsız canlıların parçalanmasına, ağrı-acı çəkməsinə səbəb olmayan tarazlığın olduğu başqa sistem yarada bilərdi.

Özümü müşahidə etmək və sual verməkdən saxlaya bilmirəm. Bu məsələdəki məna və hikməti dərk etməyim asan olmamışdı. Bəzi dostlarımı bu məsələnin müzakirəsinə, bu təbiət hadisəsi haqqında düşünməyə, düşüncələrimi əsir edən bu suala cavab axtarmağa çağırdığımda gördüm ki, onlar araşdırılması asan olmayan məsələlər haqqında sual verməyə, müzakirə aparmağa qorxurlar. Təbii ki, mən onların bu davranışını başa

düşür və üzrlü hesab edirəm. Onların cavabları bu məzmunda idi ki, ağrı-acı mühümdür, həyatı qurmaq, ərsəyə gətirmək üçün əzabkeşliyin öz rolu var. Mən isə çöldə canavarın, dənizdə köpək balığının dişləri arasında qalan ceyran və balıqların ağrı-acı çəkməsinin mənasını başa düşə bilmirdim.

Dostlarımdakı narahatlığa başa düşmək, dərk etmək istəyi ilə imanın qarışıq salınması qorxusu səbəb olmuşdu. Fikrimcə, iman və bu istək arasında ziddiyyət yoxdur. Çünki iman universal prinsiplər və düşüncədən doğur. Suallar isə ayrı-ayrı məsələlər, detallar ətrafında meydana gəlir. Sualımın nəticəsindən, təfsilatlı məzmunu, yaxud həyat və varlığa dair bir məsələni öyrənmək üçün hansı yolla getməyimdən asılı olmayaraq, Allahın qüdrəti və hikmətinə olan inamım dəyişmir. Çünki Allahın qüdrəti və hikmətini heç də həmişə məhdud məntiqimiz və dərketmə qabiliyyətimizlə qavraya bilmirik. Amma bu, eyni vaxtda, intellektual səviyyəmin, məntiqi bacarığımın imkan verdiyi ölçüdə öyrənmək, düşünmək, aşkara çıxarmaq istəyinin üstündən xətt çəkmir. Çünki burada mənim öyrənmək, bilmək, görmək istəyim mövcuddur. Təbii ki, bu öyrənmə və aşkara çıxarmaq istəyi lovğalıqla, təkəbbürlə müşayiət edilməməlidir.

Düşünmək, mühakimə etməklə insan maksimum bilik səviyyəsinə çatır, bildiklərinin dairəsini genişləndirir. Ağıl və düşünmək vəhyi, peyğəmbərliyi, həyatda onların yolgöstərənliyini dərk edib başa düşmək vasitəsidir. Vəhy insanı araşdırmaq və sağlam fəhmə nail olmaqdan azad

etmir. Şəriəti və qanunvericiliyi başa düşmək, Allahın istədiyi şəkildə həyat işlərinə tətbiq etmək üçün ağıla inanmaq, onu vəhylə vəhdətdə götürmək lazımdır. Allah istəyir ki, məhz bu yolla qanunlar aləmlərə nur və yolgöstərən olsun. Ağıldan istifadəyə yox demək, ona güvənməmək, kor təqlidə çağırmaq, öyrənməyi, araşdırmağı, faktları və qanunauyğunluqları başa düşməyi rədd etmək – bütün bunlar imanın alət edildiyi yekəxanalığın bir formasıdır ki, bu da ətalət və sapqınlıq doğurur.

Amma mən heyrətimi azalda, bilmək və gizli həqiqətləri üzə çıxarmaq istəyimdəki acizliyi dəf edə bildim. Belə ki bir dəfə, yaddaşım məni aldatmırsa, İbn əl-Qəyyim əl-Cövziyyənin bir kitabını vərəqləyirdim. Mənimkinə oxşayan sualla çıxış etmiş, beynimə həkk olunmuş cavaba yaxın cavab vermişdi. Dediyim budur ki, Allahın qüdrət və hikmətinə güvənməli, dərketmə bacarığımızın isə məhdud olduğunu etiraf etməliyik. Biz bu prinsipi qəbul etsək, məlum suala konkret və ağlabatan cavab tapa bilmədiyimizdə məsələni Allahın hikmətinə həvalə edirik. Çünki, bir tərəfdən, ilahi müdrikliyə inamımız böyükdür, digər tərəfdən isə məhdud ağlımızın həmin hikməti üzə çıxarmaqda aciz qaldığını etiraf edirik.

Heyrətimin azalmasına baxmayaraq, sual öz ağlabatan və qənaətbəxş cavabını gözləyir. Sualın həqiqi cavabını, bəlkə də, tapa bilməyəcəyəm, çünki ola bilsin ki, o, dərketmə qabiliyyətimdən, məntiq bacarığımdan uzaq məsələdir; amma yenə də axtaracağam, araşdıracağam, bəlkə də, günlərin birində, daha doğru cavabı tapacağam.

## Heyvanların mahiyyəti: ruhu olmayan torpaqmənşəli həyat

Hər hansı problem haqqında düşünmək üçün onun "köklər"inə nəzər salmaq, ayrı-yarı tərəflərini vəhdətdə götürən, gizli tərəflərini üzə çıxaran kompleks metoddan istifadə etmək lazımdır.

Kainatı, varlıqları, onlardakı universal qanun və əlaqələri öyrənərkən müraciət edəcəyimiz əsas mənbə bütün bunları yaradan Allahdır, insan oğluna onu (yer üzünü, təbiəti – ***mütərcim***) idarə etmək, özünü tərbiyə edib haqqı möhkəmlətmək üçün göndərdiyi təlimlərdir.

Allahın sözü, bəşəriyyətə göndərdiyi sonuncu missiya sayılan Qurani-Kərim kosmik və məqsədyönlü universaliləri, münasibətləri başa düşmədə mənbədir. Bu səbəbdən sözügedən problemin açarı Qurani-Kərimdə deyilənləri öyrənmək və araşdırmaqda gizlənmişdir. İnsan həyatını, varlığındakı, kainatdakı ali universali və metafizik məsələləri başa düşmək üçün Qurana müraciət etmək lazım gələcəkdir. Odur ki mən heyvanların mahiyyəti və münasibətləri (insanlarla və özləri ilə münasibətlərindən söhbət gedir) problemi barəsində düşünərkən Qurana – ali universali və metafizik məsələlərin mənbəyinə müraciət etdim. Etdim ki, məxluqatın mahiyyəti və təbiətindən nəyisə başa düşməyimə, onların bəzi münasibətlərini, bundakı məqsədi izah etməyimə kömək edəcək işartı tapım. Problemi başa düşmək cəhdimin nəticəsində Allahın kita-

bından əldə etdiklərim, bəlkə də, müəyyən qədər faydalıdır.

Məlumdur ki, işıq, alov və torpaq enerjinin müxtəlif formalarıdır və elm indiyədək onların mahiyyətini tam şəkildə başa düşmüş deyildir.

Quranda göstərilir ki, dağıdıcı və yanan alov sönük və sabit, hərəkətsiz, "sakit" torpaqdan üst dərəcədədir. Bunun üçün alovdan yaradılmış İblis təkəbbürə qapılaraq, torpaqdan xəlq edilmiş Adəmə səcdə etməkdən boyun qaçırmışdı:

"(Allah iblisə): "Mən sənə əmr edəndə sənə səcdə etməyə nə mane oldu?" – deyə buyurdu. (İblis:) "Mən ondan daha yaxşıyam (üstünəm), çünki Sən məni oddan, onu isə palçıqdan yaratdın!" – dedi" (əl-Əraf, 12);

"Yenə yadına sal ki, bir zaman mələklərə: "Adəmə səcdə edin!" – deyə əmr etmişdik. İblisdən başqa hamısı səcdə etmişdi. (İblis:) "Sənin palçıqdan yaratdığına mən səcdə edərəmmi?!" – demişdi" (əl-İsra, 61);

"İnsanı (Adəmi) saxsı kimi (toxunduqda səs çıxardan) quru palçıqdan O yaratdı.

(Cinlərin əcdadı) cannı da tüstüsüz (təmiz) oddan O xəlq etdi" (ər-Rəhman, 14-15);

"(Şeytan) dedi: "Sənin quru və qoxumuş qara palçıqdan yaratdığın insana səcdə etmək mənə yaraşmaz!" (əl-Hicr, 33).

Quranda alov həmişə zərərlə, əzabla, ağrı-acı ilə müqayisə olunur:

"Onlar (müşrik qadınlar və kişilər) sizi alova (cəhənnəmə) çağırdıqları halda, Allah sizi Öz izni ilə Cənnətə, məğfirətə (bağışlanmağa) çağırır" (əl-Bəqərə, 221);

"Onları (kafirləri) nurdan ayırıb zülmətə salarlar. Onlar alovluqdurlar (cəhənnəmlikdirlər) və orada həmişəlik qalacaqlar!" (əl-Bəqərə, 257);

"Bu, Allahdan qorxub pis əməllərdən çəkinənlərin aqibətidir. Kafirlərin aqibəti isə alovdur (Cəhənnəmdir)!" (ər-Rəd, 35);

"Onlar müharibə alovu yandırdıqca Allah onu söndürər" (əl-Maidə, 64);

"Allah iman gətirib yaxşı əməllər edənləri (ağacları) altından çaylar axan cənnətlərə daxil edər. Kafirlər isə (dünyada) səfa sürər, heyvan kimi yeyib-içərlər. (Öləndən sonra) cəhənnəm odu onların məskəni olacaqdır!" (Mühəmməd, 12).

Alovun mahiyyəti işıqla əlaqəli olsa da, dağıdıcı və yandırıb-yaxıcıdır. Bu səbəbdən İblis mələklərlə birlikdə idi. Asi olub müxaliflik etdikdə dağıdıcı xarakter, əziyyət edici meyllər ona hakim kəsildi və o, rəbbinin əmrini yerinə yetirməkdən boyun qaçırdı. Alovdan yaradılmış cinlər arasında iman gətirib itaət edən olduğu kimi, təkəbbür göstərib asilik edənlər də vardır.

İblisin təbiəti əziyyət verici alovdan təşəkkül tapdığı üçün asiliyə meyl göstərdiyində Allahın əmrinə təkəbbürə qapılaraq müxalif olmuş, insana kin bəsləmiş, ona zərər vermək istəmiş, onu əziyyət verməklə hədələmiş, səhvə və sapqınlığa sürükləmiş, həqir palçıq tərəfin onda ağır basmasına səbəb olmuşdu. Elə ki, palçıqmənşəli mahiyyət özünü daha çox göstərdi, insanda meşə qanunları ilə idarə etmək, ayrı-seçkilik qoymaq, azğınlıq edib ədavət bəsləmək, şəhvətinə əsir olmaq meylləri yaranmışdır:

"Yenə yadına sal ki, bir zaman mələklərə: "Adəmə səcdə edin!" – deyə əmr etmişdik. İblisdən başqa hamısı səcdə etmişdi. (İblis:) "Sənin palçıqdan yaratdığına mən səcdə edərəmmi?!" – demişdi.

(İblis) həmçinin: "(Pərvərdigara!) Bir de görək (məni oddan, bu Adəmi torpaqdan yaratdığın halda) nə üçün onu məndən üstün tutdun? Əgər (məni öldürməyib) qiyamət gününə qədər mənə möhlət versən, az bir qismi istisna olmaqla, onun nəslini öz hökmüm altına alaram".

(Allah) buyurdu: "Çıx get! (Sənə qiyamətə qədər möhlət verdim!) Onlardan hər kəs sənə uysa, (bil ki) cəzanız Cəhənnəmdir. Özü də tamam-kamal bir cəza!

Onlardan kimi bacarırsansa, səsinlə (vəsvəsənlə) yerindən oynat, atlı və piyadanı onlara qarşı səfərbər et, mallarına və övladlarına ortaq ol, onlara cürbəcür (yalan) vədlər ver. Şeytan (ona uyanlara) yalnız yalan vəd verər!

Doğrusu, Mənim (mömin) bəndələrim üzərində sənin heç bir hökmün ola bilməz. Rəbbinin vəkil olması (sənin şərindən və vəsvəsəndən onları qoruması) kifayət edər!" (əl-İsra, 61-65);

"(İblis) dedi: "Ey rəbbim! Məni azdırmağına (rəhmətindən kənar etməyinə) əvəz olaraq and içirəm ki, mən də (bunun müqabilində) onlara (pis əməllərini, günahlarını) yer üzündə yaxşı göstərib onların hamısını yoldan çıxaracağam!

Yalnız Sənin sadiq bəndələrindən başqa!"

(Allah) buyurdu: "Mənə görə, bu, düz yoldur!

Sənə uyan azğınlar istisna olmaqla, bəndələrim üzərində (onları yoldan çıxarıb günaha vadar etməyə) sənin heç bir hökmün olmaz!

Şübhəsiz ki, Cəhənnəm onların hamısına vəd olunmuş (onları gözləyən) yerdir!" (əl-Hicr, 39-43).

Nura gəlincə, – o bütövlükdə xeyirdir – görürük ki, Allahın atributlarından biri kimi göstərilir:

"Allah göylərin və yerin nurudur" (ən-Nur, 35);

Haqqın, xeyir və hidayətin xüsusiyyəti kimi göstərilir:

"Allah (Ona) iman gətirənlərin dostudur, onları zülmətdən çıxarıb işığa tərəf yönəldər" (əl-Bəqərə, 257);

"Elə isə Allaha, Onun Peyğəmbərinə və nazil etdiyimiz nura (Qurana) iman gətirin!" (ət-Təğabun, 8);

"Sən (bundan əvvəl) kitab nədir, iman nədir bilməzdin. Lakin Biz onu bəndələrimizdən dilədiyimizi haqq yola qovuşdurmağımız üçün bir nur etdik" (əş-Şura, 52).

Quranda işıq saçan və yol göstərən Ay nur kimi, işıq və istilik verən Günəş isə "ziya" və "sirac" olaraq təsvir edilir. Bu onların insan həyatına təsirinə görədir. Çünki işıq və nur dağıdıcı olmayan faydalı enerji formasıdır. "Sirac" işıq saçan alovdur. Yandırıcı alova gəlincə, faydası ondakı dağıdıcı və dəyişdirici enerjidədir.

"Günəşi işıqlı (parlaq), Ayı nurlu edən məhz Odur" (Yunis, 5);

"Orada Ayı bir nur, Günəşi də bir çıraq etdi" (Nuh, 16);

“Xeyr! O mütləq Hütəməyə atılacaqdır!
Sən nə bilirsən ki, Hütəmə nədir?!
O, Allahın yanar odudur” (əl-Huməzə, 4-6);

“Xeyr (bu mümkün deyildir). Həqiqətən, o (Cəhənnəm) alovlu atəşdir.
(Elə bir atəş ki) başın dərisini sıyırıb çıxardır (dərini sümükdən ayırır)” (əl-Məaric, 15-16).

Ruh isə Allahın dərgahından və nurundandır. O, insanda alilik, kamillik və xeyir xüsusiyyətlərini təmsil edir və Allaha aid edilir:

“Sonra onu düzəldib insan şəklinə saldı və ona öz ruhundan üfürdü” (əs-Səcdə, 9);

“Mən ona surət verib ruhumdan üfürdüyüm zaman siz ona səcdə edin!” (əl-Hicr, 29);

“(Ya rəsulum!) Səndən ruh haqqında soruşarlar. De: “Ruh rəbbimin əmrindədir. Sizə (bu barədə) yalnız cüzi (az) bilik verilmişdir!” (əl-İsra, 85);

“(Ya rəsulum!) De: “Ruhülqüds (Cəbrayıl) onu (Quranı) sənin rəbbindən iman gətirənlərə səbat vermək, müsəlmanları isə doğru yola yönəltmək və müjdə vermək üçün haqq olaraq nazil etmişdir!” (ən-Nəhl, 102);

“Onu Ruhuləmin (Cəbrayıl) endirdi” (əş-Şüəara, 193).

Beləliklə, biz üç elementdən ibarət varlıq qarşısındayıq: işıq (insandakı ruh işıqdan olub başlanğıcını Allahdan götürür), alov və palçıq.

Allahdan gələn **işıq** insan üçün hidayət və fayda mənbəyidir. Ruh insana ondan üfürülmüşdür.

**Alov** yandırıcı və dağıdıcıdır, iblis və cinlər ondan yaradılmışdır.

**Palçıq** hərəkətsiz və sönük olub, dərəcə baxımından aşağıdır. İnsanın bədəni və yer üzündəki bütün heyvanlar ondan yaradılmışdır.

Pak, Yaradıcı və Yolgöstərən Allah göylərin və yerin nurudur. Şər və pis İblis dağıdıcı alovdandır. Heyvanlar isə ruhsuz olub palçıq mənşəlidirlər. İnsana gəlincə, ali ruh nuru ilə sönük və həqir palçıq lilinin birləşdiyi yeganə canlıdır.

## İnsan işıq və palçıqdır: əbədi həyat

Bu yerdə, insanın və yer üzündəki bütün heyvanların bədəninin (orqanizminin) palçıqdan yaradılması, heyvanların təbiətində yaşamaq üçün bir-birlərini parçalama instinktinin olmağı haqqında danışmaq istəyirik.

İnsan ruhun üfürüldüyü yeganə canlıdır. Həmçinin yeganə canlıdır ki, onda işıqsaçan ruhla kəsif və həqir palçıq birləşmişdir. Həmçinin digər canlılar arasında ancaq insana həyatını nizamlamaq üçün ilahi təlimlər – vəhy göndərilib. Meşə qanunları isə heyvanlar üçündür. Heyvan isə nəfəsi olan candır, palçıqdan yaradılmış orqanizmdir. Bu baxımdan Quranda yaşayan insan və heyvanlar “nəfs” (can) adlandırılmışdır:

“Hər can ölümü dadacaqdır” (əl-Ənkəbut, 57).

İnsan oğlu heyvanlar və Şeytandan ruhunun olmağı ilə seçilir:

“Mən ona surət verib ruhumdan üfürdüyüm zaman siz ona səcdə edin!” (əl-Hicr, 29).

Heyvan yaşamaq baxımından insan kimidir. O, nəfəs alan, yaşayan orqanizmdir. Yaşamaq və

nəfəs almaq nə vaxt isə qurtarmalı, bədən də ölüb yox olmalıdır. Heyvanın ruhu, düşüncəsi, vicdanı yoxdur, onu meşə və həqir palçıq qanunları idarə edir. Bu qanunlara görə güclü haqlıdır. İnsanda isə vəziyyət başqa cürdür: onu ruh və nur qanunları idarə edir. Bu qanunlara görə, haqlı güclüdür. Allah insandakı həm heyvani nəfs barəsində söhbət açır: "Nəfs (insana) pis işlər görməyi (şəhvətə uymağı) əmr edər" (Yusif, 53), həm də ondakı ruh və palçıqdan danışır: "Biz ona iki yol göstərmədikmi?! Lakin o, əqəbəni (maneəni) keçə bilmədi" (əl-Bələd, 10-11); "Biz ona haqq yolu göstərdik. İstər minnətdar olsun, istər nankor (bu onun öz işidir)" (əl-İnsan, 3); "Amma kim (qiyamət günü) rəbbinin hüzurunda durmaqdan qorxmuş və nəfsinə istəyini (şəhvəti) qadağan etmişsə, Həqiqətən, onun yurdu Cənnətdir!" (ən-Naziat, 40-41).

Heyvan yaşamaq, həyatda olmaq baxımından insana oxşardır, amma ondan ruhunun olmamağı ilə fərqlənir. Bu səbəbdən dualist təbiəti olan insanla əlaqəli xarakter, mahiyyət, məqsəd və qanunlar heyvanlarınkından tamamilə seçilir.

İnsana nəzər saldığımızda onda ruh və işıq qanunları ilə əlaqəli idrakla, vicdanla, ülviliklə yanaşı, bədən, bioloji ehtiyaclar, istək və şəhvət görürük. Sonuncular insanı ondakı palçıq təbiətinə, heyvanların meşə qanunlarına çəkir. İnsan bu mənada iki elementdən ibarətdir: işıq mənşəli ruh və nəfəs alan can, yəni yaşamaq istəyi və ehtirasını əks etdirən orqanizm və həyat. Bu üzdən "nəfsin istədiyi və arzuladığı şeylər insanlara

gözəl göstərilmişdir" (Ali-İmran, 14). Ruh sahibi olan insan heyvani nəfsini tərbiyə etməlidir:

"Amma kim (qiyamət günü) rəbbinin hüzurunda durmaqdan qorxmuş və nəfsinə istəyini (şəhvəti) qadağan etmişsə, Həqiqətən, onun yurdu Cənnətdir!" (ən-Naziat, 40-41).

Əslində insan həyatına və məqsədlərinə diqqətlə nəzər salsaq, görəcəyik ki, həyat ruhun prinsip və dəyərləri məqsəd bilən istəkləri ilə torpaqmənşəli bioloji bədənin – haqq, ədalət və gözəllik dəyərləri ilə ülviləşmədikdə – tələbat və ehtirasları arasında gedən mübarizədən ibarətdir. Allah Təala bir çox ayədə bu mübarizədən, onun məqsədlərə, dəyər və prinsiplərə istiqamət verməsindən danışır:

"Hansınızın əməlcə daha gözəl olduğunu sınamaq üçün ölümü və həyatı yaradan Odur. O, yenilməz qüvvət sahibidir, (çox) bağışlayandır" (əl-Mülk, 2);

"Ey insan! Sən (ölənə qədər) rəbbinə doğru çalışıb çabalayırsan. Sən Ona qovuşacaqsan!" (əl-İnşiqaq, 6);

"And olsun nəfsə və onu yaradana (ona biçim verənə);

Sonra da ona günahlarını və pis əməllərdən çəkinməsini (xeyir və şəri) öyrədənə ki,

Nəfsini (günahlardan) təmizləyən mütləq nicat tapacaqdır!

Onu (günaha) batıran isə, əlbəttə, ziyana uğrayacaqdır." (əş-Şəms, 7-10);

"Biz ona haqq yolu göstərdik. İstər (nemətlərimizə) minnətdar olsun, istər nankor (bu onun öz işidir).

Biz kafirlər üçün zəncirlər, qandallar və alovlu bir atəş hazırlamışıq.

Şübhəsiz ki, yaxşı əməl və itaət sahibləri (Cənnətdə) kafur qatılmış (şərabla dolu) qədəhdən içəcəklər “ (əl-İnsan, 3-5);

“Hər kəs öz əməlinin girovudur! (Hərə öz əməlinin əvəzini alacaqdır!)

Sağ tərəf sahibləri (əməl dəftərləri sağ əllərinə verilənlər) istisna olmaqla!

Onlar cənnətlərdədirlər; bir-birindən soruşacaqlar;

Günahkarlar barəsində (və sonra həmin günahkarlara müraciət edib belə deyəcəklər):

“Sizi Səqərə (Cəhənnəmə) salan nədir?”

Onlar deyəcəklər: “Biz namaz qılanlardan deyildik;

Yoxsulu da yedirtməzdik;

Batilə dalanlarla birlikdə biz də dalardıq;

Haqq-hesab gününü yalan sayardıq.

Ölüm bizi haqlayana qədər (bu vəziyyətdə qaldıq)” (əl-Müddəssir, 38-47);

“Ey iman gətirənlər! Şərab da (içki də), qumar da, bütlər də, fal oxları da Şeytan əməlindən olan murdar bir şeydir. Bunlardan çəkinin ki, bəlkə, nicat tapasınız!

Şübhəsiz ki, Şeytan içki və qumarla aranıza ədavət və kin salmaqdan və namaz qılmaqdan ayırmaq istər. Artıq bu işə son qoyacaqsınızmı?” (əl-Maidə, 90-91);

“O kəslər ki, ayıb yerlərini qoruyub saxlayarlar (zina etməzlər);

Övrətləri və cariyələri istisna olmaqla. (Onlarla yaxınlıq etməyə görə) əsla qınanmazlar;

Bundan artığını istəyənlər isə həddi aşanlardır;
O kəslər ki, əmanətə xəyanət etməz, verdikləri sözü yerinə yetirərlər;
O kəslər ki, düzgün şəhadət verərlər
Və o kəslər ki, namazlarını (layiqincə) hifz edərlər
Məhz onlar cənnətlərdə ehtiram olunacaq (əzizlənəcək) kimsələrdir!" (əl-Məaric, 29-35);

"Ey iman gətirənlər! Nə mal-dövlətiniz, nə də oğul-uşağınız sizi Allahın zikrindən yayındırmasın! Hər kəs bunu etsə (Allahı yada salmasa), belələri əsl ziyana uğrayanlardır." (əl-Munafiqun, 9);

"(Ey insanlar!) Bilin ki, dünya həyatı oyun-oyuncaq, bər-bəzək, bir-birinizin qarşısında öyünmək və mal-dövləti, oğul-uşağı çoxaltmaqdan ibarətdir. Bu elə bir yağışa bənzəyir ki, onun yetişdirdiyi bitki (məhsul) əkinçilərin xoşuna gələr. Sonra o quruyar və sən onun saralıb-solduğunu, daha sonra çör-çöpə döndüyünü görərsən. (Dünya malına aldananları) axirətdə şiddətli əzab, (dünya malına uymayanları isə) Allahdan bağışlanma və razılıq gözləyir. Dünya həyatı aldanışdan (yalandan) başqa bir şey deyildir.

(Ey insanlar!) Rəbbiniz tərəfindən bağışlanmağa və genişliyi yerlə göyün genişliyi qədər olan, Allaha və Onun peyğəmbərlərinə iman gətirənlərdən ötrü hazırlanmış Cənnətə nail olmaq üçün (yaxşı əməllər etməkdə) bir-birinizi ötüb keçməyə çalışın. Bu, Allahın dilədiyi kimsəyə əta etdiyi lütfdür (mərhəmətdir). Allah çox böyük lütf (mərhəmət) sahibidir!" (əl-Hədid, 20-21);

"Qadınlar, uşaqlar, qızıl-gümüş yığınları, yaxşı cins atlar, mal-qara və əkin yerləri kimi

nəfsin istədiyi və arzuladığı şeylər insanlara gözəl göstərilmişdir. (Lakin bütün) bunlar dünya həyatının keçici zövqüdür, gözəl dönüş yeri isə Allah yanındadır.

(Ya rəsulum!) Söylə: "Sizə bunlardan (dünya zinətlərindən) daha yaxşısını xəbər verimmi? Allahdan qorxub pis əməllərdən çəkinənlər üçün rəbbi yanında (ağacları) altından çaylar axan cənnətlər (bağlar) vardır ki, orada əbədi qalacaqlar. Onlardan ötrü orada (hər cür eyibdən) pak olan zövcələr və (ən böyük nemət olan) Allah rizası (razılığı, hüsn-rəğbəti) vardır. Allah, həqiqətən, bəndələrini görəndir!" (Ali-İmran, 14-15);

"Hər kəs bir kimsəni öldürməmiş (bununla da özündən qisas alınmağa yer qoymamış) və yer üzündə fitnə-fəsad törətməmiş bir şəxsi öldürsə, o, bütün insanları öldürmüş kimi olur. Hər kəs belə bir kimsəni diriltsə (ölümdən qurtarsa), o, bütün insanları diriltmiş kimi olur" (əl-Maidə, 32);

"Onlar Allahla yanaşı başqa bir tanrıya ibadət etməz, Allahın haram buyurduğu cana nahaq yerə qıymaz (onu öldürməz), zina etməzlər. Hər kəs bunu (bu işləri) etsə, cəzasını çəkər" (əl-Furqan, 68);

"(Ya Peyğəmbər!) Dini (haqq-hesab gününü) yalan hesab edəni gördünmü?

O elə adamdır ki, yetimi itələyib qovar (haqqını verməz);

Və (xalqı) yoxsulu yedirtməyə rəğbətləndirməz.

Vay halına o namaz qılanların ki,

Onlar öz namazlarından qafildirlər;

Onlar (namazlarında) riyakarlıq edər,

Və (xalqa) zəkat verməyi qadağan edərlər" (əl-Maun, 1-7);

"Kim (axirətdən vaz keçib) dünyanı və onun bərbəzəyini istəyirsə, Biz ona əməllərinin əvəzini (sağlamlıq, sərvət, övlad, gözəl yaşayış) elə orada (dünyada) verərik. Onların dünyadakı mükafatları əsla azaldılmaz.

Belələrini axirətdə atəşdən (cəhənnəm odundan) başqa heç bir payı yoxdur. Onların dünyada gördükləri işlər puç olar və bütün əməlləri boşa çıxar! " (Hud, 15-16);

"Yaxşı iş görənin xeyiri özünə, pislik edənin də zərəri özünə olar. (Ya Peyğəmbər!) Sənin rəbbin (haqsız yerə) bəndələrə zülm edən deyildir!" (Fussilət, 46);

"Hər kəs (günahlardan, küfrdən) təmizlənsə, özü üçün təmizlənmiş olar (savabı özünə yetişər). Axır dönüş ancaq Allahadır!" (Fatir, 18);

"Mən özümü təmizə çıxartmıram. Rəbbimin rəhm etdiyi kimsə istisna olmaqla, nəfs (insana) pis işlər görməyi (şəhvətə uymağı) əmr edər. Həqiqətən, rəbbim bağışlayandır, rəhm edəndir!" (Yusif, 53).

Qurandakı ayələr izah edir ki, insanın dünya həyatı iki tərəfin mübarizəsindən ibarətdir. Bir tərəfdə ruh, prinsiplər və dəyərlər, digər tərəfdə isə bioloji bədən, istək və ehtiras dayanmışdır. Bu iki tərəf insanda özünəməxsus formada kəsişir. Bu kəsişmə ya ucalma, saflaşma, paklanma, cənnətdə əbədi həyatla, ya da çökmə, zülm, fəsad, tənəzzül, ziyan, əzab, cəhənnəm və bədbəxtliklə başa çatır:

"Həqiqətən, yaxşı əməl və itaət sahibləri (möminlər) Cənnətdə qərar tutacaqlar.

Pis əməl sahibləri (kafirlər) isə Cəhənnəmdə olacaqlar" (əl-İnfitar, 13-14);

"Ey (öz imanından, əməlindən və Allahın vədindən) xatircəm olan kəs!

Dön rəbbinə, sən Ondan razı olaraq, O da səndən!

(Əməlisaleh) bəndələrimin zümrəsinə daxil ol!

(Onlarla birlikdə) Cənnətimə varid ol!" (əl-Fəcr, 27-30).

Bu tabloda, bu mübarizədə – ruh və ülviyyətin bədənlə, palçıqla, çöküşlə, şəhvətlə mübarizəsində dərrakəli insan maddiyyat uğrunda mübarizə və həyat siklinin məzmununu, həqir palçığın ondakı təzahürlərini, mübarizənin gətirdiyi zülmü, parçalanmanı, düşmənliyi, meydana çıxardığı meşə qanunlarını, bu qanunların ifadəsi kimi heyvanların və azmış insanların dünyasında güclünün haqlıya üstün gəlməsini, aşağı bioloji mövcudluğun mahiyyətini, bu mövcudluğun insanda işıqlı ruhun palçıqmənşəli maddi heyvaniliklə, ülviyyətin zəlalətlə mübarizə aparmasına səbəb olduğunu, maddiyyata can atan ehtirası, ruhun insanı xeyir və haqq nərdivanında yüksəldən istəklərini, nur qanunlarını görə bilər.

Həmçinin tənəzzül ifadə edən materiyanın (burada bioloji bədən nəzərdə tutulur – ***mütərcim***) mahiyyəti bəzi cəhətlərdən həm islamdakı maddi və mənəvi təmizliyin rəmzi mənalarını (ayaqyolusonrası təmizlənməni, dəstəmazı, qüslü, təmizliyi, örtünməni, bəzənməni, yemək vaxtı dua etməyi, Allahın adını çəkməyi, kəsmə zamanı "Allahu əkbər" deməyi, ehtiyac olmadıqda heyvan və quş ovlamamağı, heyvanların qayğısına qalmağı, onlarla mehriban davranmağı, ətraf

mühiti qorumağı), onun fərdin həyatı, fəaliyyəti və ibadətindəki rolunu, həm də kəsici dişləri və caynaqları olan yırtıcı heyvanların ətini yeməyin nə üçün haram edildiyini izah edir. Çünki onların ətini yemək, görünür, insanı yırtıcı təbiətli etməklə heyvani güclərin mübarizəsi meydanına daxil edir. Ola bilsin ki, insanın yırtıcı heyvanları yeməsi onun davranışlarına, bəşəri xarakterinə təsir göstərsin. "Nə yediyini de, kim olduğunu söyləyim" deyimindəki məzmun da, haradasa, bundan xəbər verir[1]. Bəzi araşdırmalar ətlə qida-

---

[1] Allahın Quran üçün seçdiyi ərəb dilinin bəzi cəhətlərində diqqəti cəlb edən və dilçi alimlərin də öyrənməsi lazım gələn və mənim də müşahidə etdiyim budur ki, bəşəri mövcudluqla əlaqəli tərəfləri ifadə edən adların (ismi-sifətlərin) sonu "əlif" və "nun" hərfləri ilə bitir:

Yaradıcı Allah – Rəhm**an**

Şər İblis – Şeyt**an**

Kainatdakı gizli mahiyyətlər – c**an**n

Bioloji canlılar – heyv**an**

Adəm oğlu – ins**an**

Qeyd edək ki, mələklər münasibətlərdə birbaşa və ya dolayısı ilə qarşılıqlı təsirə malik tərəfi təmsil etmirlər. Onlar Allahın iradəsinin həyata keçirilməsi vasitələridir: "Allahın onlara verdiyi əmrlərə asi olamayan, buyurduqlarını yerinə yetirən daş qəlbli (heç kəsə zərrəcə rəhm etməyən) və çox sərt təbiətli mələklərdir" (ət-Təhrim, 6). Onlar sonu əlif və nunla bitən ismi-sifətlə xarakterizə edilmirlər.

Qurana müraciət etmək, ilahi substansiya haqqında deyilənləri diqqətlə araşdırmaq mümkündür. Məsələn, "Rəhman" ismi-sifətinə nəzər salaq: "Sizin tanrınız bir olan Allahdır, Ondan başqa tanrı yoxdur. O, rəhmlidir, mərhəmətlidir" (əl-Bəqərə, 163); "De: "İstər Allah, istərsə də Rəhman deyib çağırın (dua edin). Hansını desəniz (fərqi yoxdur), çünki ən gözəl adlar (əsmayi-hüsna) yalnız Ona məxsusdur" (əl-İsra, 110). Eyni şeylər şeytana, görünməz varlıqlara (***cann***),

lanan heyvanları yeməyin insana zərərli olduğunu göstərmişdir.

---

heyvan və insana da aiddir. Quranın bir çox ayəsində bu varlıqlar ismi-sifətlə göstərilib.
Allah Təala Şeyan haqqında deyir: "(Ya Rəsulum!) Quran oxumaq istədiyin zaman məlun Şeytandan Allaha sığın! ("Əuzu billahi minəş-şeytanır-rəcim" sözlərini de!)" (ən-Nəhl, 98); "Kim Şeytanın getdiyi yolla getsə, o, (insanlara) çirkin, pis işlər görməyi (zina etməyi, yalan danışmağı, özgələrə böhtan atmağı) əmr edər" (ən-Nur, 21); "Həqiqətən, Şeytan sizin düşməninizdir, onu (özünüzə) düşmən tutun" (Fatir, 6). Allah heyvanlar haqqında isə buyurur: "Yerdə gəzən elə bir heyvan, qanadları (iki qanadı) ilə uçan elə bir quş yoxdur ki, sizin kimi ümmətlər olmasın" (əl-Ənam, 38); "Onlar heyvan kimidirlər, bəlkə də, (ondan) daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır!" (əl-Əraf, 179); "Davarı da (dəvə, inək, kəl, qoyun, keçi və s. ) O yaratdı. Bunlarda (onların yununda) sizin üçün istilik, cürbəcür mənfəət (südünü içmək; özlərini minmək, yer sürmək) vardır, həm də onlardan (onların ətindən) yeyirsiniz"(ən-Nəhl, 5); "İnsanların, (yer üzündə gəzən) heyvanların və davarların da bu cür müxtəlif rəngləri vardır" (Fatir, 28). Göründüyü kimi, canlılar üçün həqir xüsusiyyət olaraq "heyvan" sözü Quranda işlənmir. Quranda ya faydalı heyvan növləri, ya da onların mühüm xüsusiyyətləri (yer heyvanı olma və səmada uçma) göstərilib.
Allah insan və ondakı unutqanlıq xüsusiyyəti haqqında buyurur: "Şeytan onlara hakim olmuş və Allahı zikr etməyi onlara unutdurmuşdur" (əl-Mücadələ, 19); "Doğrusu, bundan əvvəl Adəmə də (Şeytana uymamağı) tövsiyə etmişdik. Lakin o (tövsiyəmizi) unutdu və Biz onda (əhdi qorumağa) əzm (səbat) görmədik" (Taha, 115); "Siz insanlara yaxşı işlər görmələrini əmr etdiyiniz halda, özünüzü unudursunuz?" (əl-Bəqərə, 44); "Ey Rəbbimiz, (bəzi tapşırıqlarını) unutduqda və ya yanıldıqda bizi cəzalandırma!" (əl-Bəqərə, 286). Allaha gəlincə, unutmaq ona xas deyildir: "Rəbbin unudan deyildir" (Məryəm, 64).

## Materializm meşə qanunları, zorakılıq və zülm deməkdir

Bu ifadə bizə sosial darvinizmin dağıdıcı məzmununu izah edir. Sosial darvinizm sadəlövh və əsassız fərziyyəyə – öz-özünə yaranma fərziyyəsinə əsaslanan materialist fəlsəfədir. O, insana ancaq bioloji varlıq – heyvan kimi baxır, onun nizamsız şəkildə yarandığını, öz-özünə inkişaf etdiyini iddia edir. Bu səbəbdən sosial darvinizm ilahi yaradılma problemini, ruh məsələsini öyrənmir. Bu fəlsəfədə insanın ruha sahib varlıq olmağı problemi qoyulmayıb. Sosial darvinizmə görə insan ruhu, intellekt və vicdanı olan varlıq deyildir, insanın yaradılmasında müsbət məqsədyönlülük yoxdur, insan həyatının mənası ruhla bədənin birləşməsini, aralarındakı mübarizəni, xeyirlə şərin, haqla puçluğun, işıqla qaranlığın savaşını ifadə etmir[1].

---

[1] Allahsız sosial darvinizmin çürüklüyü o mənaya gəlmir ki, biz insanın təkamül, yəni bir mərhələdən digərinə keçid əsasında yaradıldığını inkar edək. Quranda insanın bir vəziyyətdən digərinə keçid əsasında yaradılmasına işarə vardır: "O, yaratdığı hər şeyi gözəl yaratdı, insanı yaratmağa palçıqdan başladı. Sonra onun nəslini nütfədən – bir qətrə zəif sudan əmələ gətirdi. Sonra onu düzəldib insan şəklinə saldı və ona öz ruhundan üfürdü (həyat verdi). O sizə göz, qulaq və ürək verdi" (əs-Səcdə, 7-9). Bu ayənin məzmunu, eləcə də bəzi elmi araşdırma və qazıntılar göstərir ki, Allah insanı üç mərhələdə yaratmışdır. İlk iki mərhələ biolojidir, həyat mövcuddur, amma ruh mövcud deyildir. İlk yaradılmanın başlanma mərhələsi, bioloji artım və təkmilləşmə mərhələsi,

Sosial darvinizm təhrif edilmiş xristianlığın insana, həyat və varlığa baxışını inkar etdikdən sonra müasir Qərb fikrinin əsaslandığı fəlsəfəni əmələ gətirmişdir. Müasir Qərb fəlsəfəsi materiyaya və gücə, üstünlük və zülmə, yırtıcılığa tapınır, insan ruhuna etinasız yanaşır, haqq, ədalət, işıq, məsuliyyət məsələlərinin üstündən adlayıb keçir. Bu fəlsəfə insanı meşə qanunlarının tənzimlədiyi bioloji varlıq olaraq nəzərdən keçirir. Bu qanunlara görə, üstün və güclü olan haqlıdır, güclü olanlar həyatda qalırlar. Bu, Qərbin və onun yolu ilə gedənlərin məntiqidir.

---

Allahın atamız Adəmi tam insan olaraq yaratdığı, ona ruh üflədiyi üçüncü mərhələ. Bu, fikrimizcə, darvinizmin yaranma iddiası ilə əlaqəsi olmayan başqa problemdir. Allah Təala buyurur: "Bir şeyi (yaratmaq) istədiyi zaman (Allahın) buyurduğu ona ancaq: "Ol!" deməkdir. O da dərhal olar. Hər şeyin hökmü (ixtiyarı) əlində olan (Allah) pakdır, müqəddəsdir. Siz də (qiyamət günü dirilib) Onun hüzuruna qaytarılacaqsınız!" (Yasin, 82-83). Yəni, Allahın iradəsi Onun özünün istədiyi şəkildə təzahür edir. İlahi İradə mütləq həyata keçir. Bu izah edir ki, insan ancaq bioloji varlıq olmayıb, həm də ruhu olan canlıdır. Ruh onu ondakı ağıl, düşünmə və vicdanla birlikdə haqqın nurunu axtarmağa, təcavüzkar meşə qanunları ilə mübarizəyə təşviq edir. Allahın insanı yaratdığı forma haqqında elmi araşdırmaların təsdiqlədiyi şey nə olursa-olsun, mömin onu qəbul edir. Çünki bu, Allahın iradəsi deməkdir. Müsəlman Yaradıcının göndərdiyi vəhylə ziddiyyət yaratması mümkün olmayan bilikləri öyrənməlidir. "Onun haqq olduğu onlara bəlli olsun deyə Biz öz qüdrət nişanələrimizi onlara həm xarici aləmdə (üfüqlərdə, kainatda, göylərin və yerin ətrafında), həm də onların öz daxilində mütləq göstərəcəyik" (Fussilət, 53); "De: "Yer üzünü gəzib (Allahın) məxluqatı (ilk əvvəldən) nə cür yaratdığına baxın" (əl-Ənkəbut, 20).

Əslində, insanlıq, qarşılıqlı mərhəmət, həmrəylik, ülvilik anlayışları millətçi-irqçi subyektin addımları və hərəkətlərində tədricən yoxa çıxır və onun başqaları ilə münasibətlərinə imperialist və müstəmləkəçi ruh hakim kəsilir, heyvanilik və qəddarlıq başa keçir. Nəticədə dünyanın müxtəlif xalqlarının əziyyət çəkdiyi təcavüzkarlıq və müstəmləkəçiliyin müxtəlif iyrənc formaları hökm sürür. Həmçinin bu fəlsəfə müasir Avropa siyasi fikrində millətçiliyin meydanaçıxma səbəblərini izah edir. Bu millətçilik irqçilik və qəddarlıqla müşayiət olunur, bəzən isə soyqırımları ilə nəticələnir. Şimali və Cənubi Amerika qitələrində, Afrikada, Avstraliyada, Yaxın Şərqdə keçmişdə, indi isə Fələstində baş verənlər bunun əyani göstəricisidir.

Meşə qanunları "palçıq" qanunlarıdır, yırtıcılıq qanunlarıdır, zülm qanunlarıdır, irqçilik qanunlarıdır, düşmənçilik qanunlarıdır. İslamın gətirdiyi və digər dinlərin təhrif olunmamış yazılarında saxlanmış nur qanunları isə haqq, ədalət, məsuliyyət, qardaşlıq, rəhmdillik, bəşəri həmrəylik qanunlarıdır, təqva və canın toxunulmazlığı, əmanətə sahiblik, məzluma insaf, israfdan qaçma, korrupsiyaya "yox" qanunlarıdır. Bu qanunlarda milli və irqi ayrı-seçkiliyə yer yoxdur, güclünü haqlı görən meşə qanunlarından fərqli olaraq, burada haqlı güclüdür. Amma meşə qanunları ilə tənzimlənən xalqlararası münasibətlərdə haqq və ədalət deyimlərinə yer yoxdur, hüquq və qazanclar milli maraqlar və siyasi zərurət adı altında üstünlük prinsipi ilə bölüşdürülür. Siyasi çəkişmələr də güc və üstünlük prinsipi əsasında

həll olunur. Afrika və Amerikada xalqların başına gətirilənlər buna misaldır. Eyni şeylər indi də Fələstin xalqının başına gətirilir. Yarım əsrdən çoxdur ki, fələstinlilər öz torpaqlarında qətlə yetirilir, torpaqları əllərindən alınır, özləri də didərgin salınırlar. Özü də bu işdə yəhudilərə imperialist Qərb hərbi-siyasi dəstək verir. İnformasiya yalanlarına, psixoloji müharibəyə baxmayaraq, bütün bu baş verənlər Qərbdə meşə qanunlarından irəli gələn, zülmə, təcavüzə, ikilistandartlığa əsaslanan "dəyərlər"in olduğunu göstərir. Məhz bu "dəyərlər" keçmişdə və indi bəşəriyyətə zülm, müsibət və qırğınlar gətirmişdir. Eyni şeyi nur qanunları, peyğəmbərlərin gətirdikləri haqq, ədalət, mərhəmət və həmrəylik dəyərləri haqqında deyə bilmərik.

Yuxarıdakı mülahizələrdən çıxarılan nəticə budur ki, insanda ruh və vicdanın aliliyi ilə palçıq və nəfsi istəklərin cılızlığı birləşir. Ruh insanı haqqa, ədalətə, palçıqmənşəli bioloji məzmun isə nəfsi istəklərə, şəhvaniliyə, zülmə, təcavüzə təşviq edir. Bu tərəflərin hər birinin öz qanunları vardır. Ruh və ilahi nur qanunları gücü haqqa tabe edir, xeyrə, ədalətə çağırır. Palçıq qanunlarına gəlincə, meşə heyvaniliyi və vəhşiliyi haqqı gücə təslim edir. Meşə qanunları ilə hərəkət edən insanda yekəxanalıq, təcavüz və zülm xarakterə çevrilir.

## Güclü haqlıdır – müstəmləkəçi, irqçi və materialist Qərb nöqteyi-nəzəri

Qərb nur qanunlarından uzaqlaşıb inkar yolunu tutduğu, maddiyata əsir düşdüyü üçün məfkurəsi təhrifə məruz qalmışdır. Bununla da Qərb ruh və mənəvi dəyərləri özündən uzaq tutmuş, həqir palçıq heyvaniliyinə bürünmüş, qaranlığa geri qayıtmışdır. Onun qanunları meşə qanunlarına çevrilərək təcavüzkar, irqçi və müstəmləkəçi xarakter almış, güclünü haqlı qəbul etmişdir. Heyvani instinktlərdən çıxış etdiyi üçün Qərb cəmiyyətində əxlaq çökmüş, davranışlar tənəzzül etmiş, xristianlıqdan qalmış və Orta əsrlərdə müsəlman mədəniyyətindən əxz edilmiş adət-ənənə və dəyərlər aşınmışdır. Nəticədə zorakılıq və irqçilik yayılmış, əxlaqsızlıq vüsət almış, ailə institutu çökmüş, nəsil artımı, sevgi və şəfqət ocağı olmaqdan uzaqlaşmış, cinsi həzz qurumu halına gəlmiş, atalar məsuliyyətdən, ailənin qayğısına qalmaq yükündən xilas olmağa çalışmış, ailələrdə ana və uşaqların əzabkeşliyi çoxalmışdı. Beynəlxalq müstəvidə isə Qərbin digər millətlərlə münasibətlərində haqq və ədalət gözlənilmir; güc əsas götürülür, zorla qəbul etdirilir. Siyasi iddia, kompromis, reallıq, milli maraqlar adı altında güclü haqlı göstərilir. Güc məntiqinə görə zülm siyasi gediş və bacarıq kimi təqdim olunur, sapqınlıq və mənəvi deqradasiya azadlıq, inkişaf və mədəniyyət adlandırılır. Bu zehniyyət yaxud fəlsəfə haqqa və ədalətə məhəl qoymur. Çünki

meşə qanunlarında göstərici və məqsəd gücdür, milli maraqlardır, eqoist istəklərdir. Allah Quranda bu nadanları, vəhşiləri meşə qanunlarının arxasınca gedənlər kimi təsvir etmişdir. Bu, avropalıların Afrika, Asiya və Amerika xalqlarına qarşı yürütdükləri təcavüzkar və müstəmləkəçi siyasətdə öz əksini tapıb. Elə indiki dövrdə dünyanın digər xalqlarına qarşı Qərbin yürütdüyü siyasət, Fələstində yəhudilərin yerli əhaliyə etdikləri zülm yuxarıda deyilənləri təsdiqləyir. Fələstində Fələstin xalqının məhv edilməsi qarşıya məqsəd qoyulub. Yüz minlərlə fələstinli öldürülüb, milyonlarla dinc sakin yurdlarından didərgin salınıb, torpaqlarının beşdə dördü işğal olunub. İsrail hökuməti yerdə qalanların axırına çıxmaq, evlərini dağıtmaq, doğma yurd və obalarından sürgün etmək üçün min-bir vasitəyə əl atır. O heç bir beynəlxalq akta, hüquqa əməl etmir. Hüquq dedikdə, təəssüf ki, daha çox qərb insanının hüququ başa düşülür. Hüquq qurumları irqçi və müstəmləkəçi siyasətçilərin siyasi maraqlarını qoruyan təsisatlar halına gəlmişdir. Qərbin siyasi və milli maraqları bütün beynəlxalq aktların fövqündə dayanır. Allah Təala həm Quranın nazil olduğu, həm də ondan sonrakı dövrdəki cahilləri – meşə qanunları ilə gedənləri təsvir edərkən buyurur:

"Necə ola bilər ki, onlar sizə qalib gəlsələr, nə bir anda, nə də bir əhdə əməl edərlər? Onlar ürəkləri istəmədikləri halda, sözdə sizi razı salmağa çalışarlar. Onların əksəriyyəti (Allaha asi olan, itaətdən çıxan, əhdi pozan) fasiqlərdir!" (ət-Tövbə, 8).

Onu da qeyd edək ki, indiki dövrdə zülmə haqq qazandıran, ikili standart mövqeyindən çıxış edən irqçi və müstəmləkəçi siyasət kursu yürüdən Qərb mədəniyyəti, fikri və ümumi nöqteyi-nəzərinə dair bu qiymətləndirmə fərqli mövqeyi olan, cəmiyyətdə hökm sürən müstəmləkəçi və praqmatik istiqamətə bütövlükdə ya da qismən qarşı çıxan fərdlərə, qruplara şamil deyildir. Belə fərdlər, qruplar mövcud olsa da, cəmiyyətə, siyasət kursu və qurumlara hakim kəsilmiş ümumi istiqamətə təsir göstərə bilmirlər. Amma həmin fərdlər və qruplar mənəvi dəyərlərə sahibdirlər, gələcəkdə, Allahın köməyi ilə, öz cəmiyyətlərində islahın, xeyrin, haqqın "toxumlar"ı ola bilərlər. Onlarla həm öz ölkələrinin, həm də bəşəriyyətin yaxşılığına əməkdaşlıq etmək çox mühümdür.

Geridə qalmış və zəif xalqları əsarətdə saxlayan müasir Qərb zehniyyəti və praqmatik siyasətini, Qərb tarixinin bu mərhələsində güc, hegemonluq və başqalarını parçalama prinsiplərinə söykənən irqçi həmrəyliyin bir forması sayılan millətçilik ideologiyasının meydanaçıxma səbəblərini, güc siyasəti, müstəmləkə hökmranlığı ideyasının yaranması şəraitini, Qərbin silahlanma həvəsini, hərbi sənayeni öz inhisarında saxlamasını, kütləvi qırğın silahlarını inkişaf etdirməsini, xalqların inkişafına mane olmasını, bəzilərini tamamilə sıradan çıxarmasını, başqa ölkələrin təbii resurslarını ələ keçirməsini, iqtisadi-mədəni müstəqilliklərinə əngəl törətməsini – bütün bunları başa düşmək üçün əvvəlcə Qərbdə xristianlığın təhrif edilmiş nur qanunlarından imtina edilməsinin mənasını dərk etmək lazımdır. Bu qanunlar güclüyə haqlı

gözü ilə baxan, prinsipləri maraq və gəlirlərə tabe edən meşə qanunlarından fərqli olaraq, haqlıya güclü gözü ilə baxmış, maraq və gəlirləri prinsiplərə təhkim etmişdir.

Qərbdə və Müsəlman dünyasında dərk edilməsi çətin məsələləri başa düşmək üçün onların hər birinin mənimsədiyi qanunları, konseptual və ideoloji istiqamətləri diqqətdən qaçırmamalıyıq.

Qərbin maddiyata aludə olmağı maddi olanı onun əsas qayəsi halına gətirmişdir. Maddi olanı qazanmaq və ondan həzz almaq üçün Qərbdə hər şeyi edirlər. Həmçinin Qərbdəki bitməz-tükənməz istehlak istəyini xristianlıq nöqteyi-nəzərindən çıxış etməklə başa düşmək mümkün deyildir; amma bunu orqaniklik, palçıq mənşəlilik baxımından izah etmək mümkündür. Belə ki Qərb xristianlıq və yəhudiliyin təhrif edilməsi ilə əlaqəli səbəblərdən mənəviyyatdan imtina etmiş, meşə qanunlarını mənimsəmiş, palçıqmənşəli və heyvan təbiətli xarakter kəsb etmişdir. Maddiyyat və yaşamaq məqsədə və orqanik mövcudluq qayəsinə çevrilmişdir. Bundan başqa məqsəd və qayə gözə dəymir. Nəticədə Qərbdə nur qanunları yox olmuş, əxlaq aşınmış, dəyərlər deqradasiyaya uğramış, əxlaqsızlıq yayılmış, ehtirasa aludəlik vüsət almış, orqanik və bioloji ehtiyaclar məqsəd halına gəlmişdir. Bu baxımdan Qərbdə nur qanunlarından imtina etmək, insana bioloji canlı gözü ilə baxmaq, maddiyyat və məişət ehtiyaclarını insan varlığının məqsədi halına gətirmək təbii məsələ hesab olunur. Quranda bu mənzərə aşağıdakı kimi təsvir olunur:

“Kafirlər isə (dünyada) səfa sürər, heyvan kimi yeyib-içərlər. (Öləndən sonra) cəhənnəm odu onların məskəni olacaqdır!” (Məhəmməd, 12);

“Qafil olanlar da məhz onlardır!” (əl-Əraf, 179).

## Müstəmləkəçilik və faşizmin qəddarlığı: şeytanla heyvanın birgəliyi

Ən böyük bəla insanda alov və palçığın, yaxud şeytan və heyvanın bir araya gəlməsidir. Bununla da, şər və pozuqluq ən iyrənc formada təzahür edir, alçaqlıq, zülm və təcavüz dürüst insanların təsəvvür edə bilmədikləri həddə çatır. Doğru ağlına gətirə bilmir ki, bəzi insanlar heyvaniləşib İblisə xidmət edə, zəif və dinc şəxslərə qarşı amansız, zalım ola bilərlər.

Bəzi insanlar və xalqlarda alovla torpağın, şeytanla heyvanın birgəliyi böyük caniləri: Neronu, Çingiz xanı, İvan Qroznını, Hitler və Stalini, cinayətkar dövlətləri: Romanı, Monqol imperiyasını, Orta əsrlər İspaniyasını, Asiya, Afrika, Avstraliya və Amerikada Avropa imperializmini bizə xatırladır. Nəticədə xalqlar əsarət altına salınmış, zülmə, talana, qırğınlara məruz qalmışdır. Hitler, Mussolini, Trümenin Avropa, Asiya və Afrikada etdikləri ilə yanaşı, İsrailin Fələstində etdikləri daha dəhşətlidir. Həmçinin bu “birgəlik” bizə silahlanma yarışlarının, hərbi sənayenin inkişaf etdirilməsi və inhisarda saxlanılmasının, yeni-yeni kütləvi qırğın silahlarının icad olunmasının, silah ticarətinin vüsət almasının, məzlumlara, ədalət və azadlıq carçılarına, müqavimət göstərən

mübarizlərə qarşı istifadə edilməsinin səbəblərinə aydınlıq gətirir.

"(Ya Rəsulum!) Onlara (yəhudilərə) ayələrimizi verdiyimiz kimsənin xəbərini də söylə (oxu). O, (ayələrimizi inkar edib) imandan döndü. Şeytan onu özünə tabe etdi və o, (haqq yoldan) azanlardan oldu

Əgər Biz istəsəydik, onu (həmin ayələrlə) ucaldardıq. Lakin o, yerə (dünyaya) meyl edib nəfsinin istəklərinə uydu. O elə bir köpəyə bənzəyir ki, üstünə cumsan da dilini çıxardıb ləhləyər, cummasan da (Onun üçün heç bir fərqi yoxdur). Bu, ayələrimizi yalan hesab edənlər barəsində çəkilən məsəldir. (Ey Peyğəmbərim!) Bu əhvalatları (yəhudilərə) söylə ki, bəlkə, (lazımınca) düşünsünlər!

Ayələrimizi yalan hesab edib özlərinə zülm edənlər barəsində çəkilən məsəl necə də pisdir!

Allahın doğru yola yönəltdiyi kimsə kimsə doğru yoldadır. Onun (haqq yolundan) sapdırdığı kimsələr isə ziyana uğrayanlardır" (əl-Əraf, 175-178);

"(Ya Rəsulum!) Nəfsini özünə tanrı edəni gördünmü? Onun vəkili (zamini) sənmi olacaqsan?

Yoxsa elə güman edirsən ki, onların əksəriyyəti (sən deyən sözü) eşidəcək və ya (ağıllı-başlı) fikirləşəcək? Onlar heyvan kimidirlər, bəlkə, ondan daha çox zəlalət yolundadırlar" (əl-Furqan, 43-44);

"Allah iman gətirib yaxşı əməllər edənləri (ağacları) altından çaylar axan cənnətlərə daxil edər. Kafirlər isə (dünyada) səfa sürər, heyvan

kimi yeyib-içərlər. (Öləndən sonra) cəhənnəm odu onların məskəni olacaqdır!

(Ya Peyğəmbər! Qövmünün) səni çıxartdığı şəhərdən (şəhər əhlindən) daha qüvvətli neçə-neçə şəhərlər (şəhər əhli) var idi ki, Biz onları məhv etdik və özlərinə bir kömək edən də tapılmadı!

Məgər rəbbindən bir dəlilə olan (dəlilə istinad edən) kimsə pis əməli özünə yaxşı göstərilən kimsə kimidirmi?! Belələri öz nəfslərinə uymuşlar" (Məhəmməd, 12-14);

"Lakin (özlərinə) zülm edənlər (kafirlər) nadanlıqla nəfslərinin istəklərinə uydular. Allahın (küfr edəcəklərini əzəldən bildiyi üçün) yoldan çıxartdıqlarını doğru yola (islam dininə) kim sala bilər? Onlara kömək edə bilən kəslər də olmaz!

(Ya Rəsulum! Ümmətinlə birlikdə) batildən haqqa tapınaraq (pak bir müvəhhid, xalis təkallahlı kimi) üzünü Allahın fitri olaraq insanlara verdiyi dinə (islama) tərəf tut. Allahın dinini (Onun yaratdığı tövhid dini olan islamı) heç vəchlə dəyişdirmək olmaz. Doğru din budur, lakin insanların əksəriyyəti (haqq dininin islam olduğunu) bilməz" (ər-Rum, 29-30);

"Onlar dünya həyatının zahirini (ticarət və əkinçilik işlərini, məişət məsələlərini) bilirlər, axirətdən isə xəbərsizdirlər.

Məgər onlar öz-özlüklərində Allahın göyləri, yeri və onların arasındakıları ancaq haqq-ədalətlə və müəyyən bir müddət üçün yaratdığını düşünmürlərmi? Həqiqətən, insanların çoxu Rəbbi ilə qarşılaşacağını (qiyamət günü dirilib

haqq-hesab üçün Allahın hüzurunda duracağını) inkar edir.

Məgər onlar yer üzünü gəzib özlərindən əvvəlkilərin aqibətinin necə olduğunu görmürlərmi? Onlar (Ad, Səmud tayfaları) bunlardan daha qüvvətli idilər. Onlar (əkinçilik məqsədilə) torpağı qazıb altını üstünə çevirmiş və yer üzünü bunlardan daha çox adab etmişdilər. Peyğəmbərləri onlara açıq-aşkar möcüzələr gətirmişdilər. Allah onlara zülm etmirdi, onlar özləri özlərinə zülm edirdilər.

Sonra da Allahın ayələrini yalan hesab edib onları məsxərəyə qoymaqla pislik edənlərin aqibəti lap pis oldu!

Allah məxluqatı əvvəlcə (yoxdan) yaradır, (öləndən) sonra yenidən dirildir. Sonra da siz (qiyamət günü) Onun hüzuruna qaytarılacaqsınız.

Qiyamət qopacağı gün günahkarlar mat-məətəl qalacaqlar. (Özlərini təmizə çıxarmaq üçün heç bir dəlil, sübut gətirə bilməyəcəklər)" (ər-Rum, 7-12);

"Biz axirət qazancını (savabını) istəyənin qazancını artırar, dünya mənfəəti istəyənə də ondan verərik. Onun axirətdə heç bir payı yoxdur" (əş-Şura, 20);

"Küfr edənlər onlara verdiyimiz möhləti heç də özləri üçün xeyirli sanmasınlar! Bizim onlara verdiyimiz möhlət ancaq günahlarını daha da artırmaları üçündür. Onlar alçaldıcı bir əzab görəcəklər!" (Ali-İmran, 178);

"Rəbbin bağışlayandır, mərhəmətlidir. Əgər (Rəbbin) onları günahlarına görə cəzalandırmaq istəsəydi, onların əzabını sürətləndirərdi. Lakin

onların (öz əzab) vaxtı vardır. (O zaman) onlar (Allahın əzabından qaçıb canlarını qurtarmağa) əsla bir yer tapa bilməzlər!

O məmləkətlərin əhalisini (Ad, Səmud tayfalarını) zülm etdikləri zaman məhv etdik. Biz onları məhv etmək üçün vaxt (vədə) müəyyən etmişdik" (əl-Kəhf, 58-59);

"(Ya rəsulum!) De: "(Bizdən və sizdən) kim zəlalət içindədirsə, qoy Rəhman ona (öz zəlalətində qalmaq üçün) uzun müddət möhlət versin". Nəhayət, vəd olunduqları ya əzabı, ya da qiyamət gününü gördükdə onlar kimin məqamının daha pis, kimin tərəfdarlarının daha zəif olduğunu biləcəklər" (Məryəm, 75);

"Kim küfr etsə, onun küfrü (ya rəsulum) səni kədərləndirməsin. Onlar Bizim hüzurumuza qayıdacaqlar. Biz də onlara (dünyada) nələr etdiklərini xəbər verəcəyik. Həqiqətən, Allah ürəklərdə olanları biləndir!

Biz onlara bir qədər gün-güzəran (bir az dünya malı) verəcək, sonra da (axirətdə) ağır bir əzaba düçar edəcəyik!" (Loğman, 23-24);

"(İblis) dedi: "Sən məni (Adəmə səcdə etmədiyimə görə) azdırıb yoldan çıxartdığın üçün mən də Sənin düz yolunun üstündə oturub insanlara (Sənə ibadət və itaət etməyə) mane olacam!

Sonra onların yanına qarşılarından və arxalarından, sağlarından və sollarından gələcəyəm (soxulacağam) və Sən onların əksəriyyətini şükür edən görməyəcəksən!"

(Allah) buyurdu: "Oradan (Cənnətdən) rüsvay olmuş və (mərhəmətimdən) kənar edilmiş (qovul-

muş) halda çıx. Onlardan (insanlardan) hər kim sənə uysa, (cəzasını alacaq). Əlbəttə, Cəhənnəmi sizin hamınızla dolduracağam!

Ey Adəm! Sən zövcənlə birlikdə Cənnətdə sakin ol. Hər ikiniz istədiyiniz yerdən (cənnət meyvələrini dərib) yeyin, ancaq bu ağaca (buğdaya və ya üzüm tənəyinə) yaxınlaşmayın, yoxsa (özünüzə) zülm edənlərdən olarsınız!"

Şeytan (Adəmin və Həvvanın) örtülü ayıb (övrət) yerlərini özlərinə göstərmək məqsədilə onlara vəsvəsə verib dedi: "Rəbbiniz sizə bu ağacı yalnız mələk olmamağınız və ya (Cənnətdə) əbədi qalmamağınız üçün qadağan etmişdir!"

Həm də onlara: "Mən, əlbəttə, sizin xeyirxah məsləhətçilərinizdənəm", – deyə and içdi.

Beləliklə, (Şeytan) onları batil sözlərlə aldatdı (onları aldadaraq uca yerlərdən, yüksək mərtəbələrdən aşağı endirdi). (Adəm və Həvva) ağacın meyvəsindən daddıqda ayıb yerləri (gözlərinə) göründü. Onlar Cənnət (ağaclarının) yarpaqlarından (dərib) ayıb yerlərinin üstünü örtməyə başladılar. Rəbbi onlara müraciət edib buyurdu: "Məgər sizə bu ağacı (ağaca yaxınlaşmağı) qadağan etməmişdimmi? Şeytan sizin açıq-aşkar düşməninizdir, deməmişdimmi?"

(Adəm və Həvva) "Ey Rəbbimiz! Biz özümüzə zülm etdik. Əgər bizi bağışlamasan, rəhm etməsən, biz, şübhəsiz ki, ziyana uğrayanlardan olarıq!" – dedilər.

(Allah) buyurdu: "Bir-birinizə düşmən olaraq (Cənnətdən yer üzünə) enin! Yerdə sizin üçün bir müddət (əcəliniz çatana qədər) sığınacaq və dolanacaq (yaşayış vasitələri) vardır".

(Allah) buyurdu: "Orada yaşayacaq, orada öləcək və oradan (dirilib) çıxarılacaqsınız!"

Ey Adəm oğulları! Sizə ayıb yerlərinizi örtəcək bir geyim və bir də bəzəkli libas (və ya mal-dövlət) nazil etdik. Lakin təqva libası daha yaxşıdır (xeyirlidir). Bu, Allahın ayələrindəndir ki, bəlkə, (onunla) öyüd-nəsihətə qulaq asasınız.

Ey Adəm oğulları! Ayıb yerlərini özlərinə göstərmək üçün libaslarını soyundurub valideyninizi (Adəm və Həvvanı) Cənnətdən qovdurduğu kimi, Şeytan sizi də aldadıb yoldan çıxartmasın. Şübhəsiz ki, o (Şeytan) və onun camaatı sizləri sizin onları görə bilmədiyiniz yerlərdən görürlər. Biz şeytanları iman gətirməyənlərin (kafirlərin) dostları etdik.

(Şeytanla dost olanlar) ədəbsizlik (bütpərəstlik adəti üzrə Kəbəni çılpaq təvaf) etdikləri zaman: "Atalarımızı belə gördük. Bunu bizə Allah əmr etmişdir",- deyirlər. (Ya Peyğəmbərim!) De: "Allah ədəbsizlik (yaramaz işlər) əmr etməz. Allaha qarşı bilmədiyiniz şeyimi deyirsiniz?" (əl-Əraf, 16-28);

"Ey iman gətirənlər! Şeytanın yolunu tutub getməyin! Kim Şeytanın getdiyi yolla getsə, o, (insanlara) çirkin, pis işlər görməyi (zina etməyi, yalan danışmağı, özgələrə böhtan atmağı) əmr edər. Əgər Allahın sizə neməti və mərhəməti olmasaydı, sizdən heç kəs heç vaxt (günahdan) pak olmazdı. Lakin Allah dilədiyini (günahdan) pak edər. Allah (hər şeyi) eşidəndir, biləndir!" (ən-Nur, 21);

"Onlara (Məkkə əhlinə): "Allahın nazil etdiyinə (Qurana) tabe olun!" deyildikdə, onlar: "Xeyr,

biz atalarımızın getdiyi yolla (ibadət etdiyi dinə) tabe olacağıq!" – deyə cavab verərlər. Bəs Şeytan onları cəhənnəm odunun əzabına çağırırsa necə?" (Loğman, 21);

"Onları hökmən (doğru yoldan) sapdıracaq, (puç) xülyalara salacaq, heyvanlarının qulaqlarını kəsməyi və Allahın yaratdıqlarını dəyişdirməyi əmr edəcəyəm! Allahı atıb Şeytanı özünə dost tutun şəxs, əlbəttə, açıq-aşkar ziyana uğramışdır.

(Şeytan) onlara (müşriklərə) vədlər verir, ürəklərində arzular oyadır. Lakin Şeytan onlara yalnız yalan vədlər verir.

Onların (Şeytana uyanların) yeri Cəhənnəmdir. Və oradan xilas olmağa çarə tapmazlar" (ən-Nisa, 119-121);

"Barı, əzabımız onların başlarının üstünü alanda yalvaraydılar. Lakin (inadları üzündən) qəlbləri sərtləşdi və Şeytan da onlara etdikləri əməlləri süslü göstərdi.

(Kafirlərə) edilmiş xəbərdarlığı unutduqları zaman (küfrlərini daha da artırmaq məqsədilə) hər şeyin (bütün nemətlərin) qapılarını onların üzünə açdıq. (Kafirlər) özlərinə verilən nemətlərə sevindikləri vaxt onları qəflətən yaxaladıq və onlar (hər şeydən) məhrum oldular" (əl-Ənam, 43-44);

"Öz mallarını xalqa göstərmək (şöhrət qazanmaq) xatirinə xərcləyənləri, Allaha və axirət gününə inanmayanları da (Allah sevməz). Şeytanla yoldaşlıq edənlərin yoldaşı necə də pisdir!" (ən-Nisa, 38);

"Şeytan onlara hakim olmuş və Allahı zikr etməyi onlara unutdurmuşdur. Onlar Şeytanın

firqəsidirlər (Şeytana uyanlardır). Bilin ki, Şeytanın firqəsi – məhz onlar ziyana uğrayanlardır!" (əl-Mücadələ, 19);

"Ey iman gətirənlər! Hamınız bir yerdə sülhə (islama) gəlin! Şeytanın yolu ilə getməyin, çünki o sizin açıq düşməninizdir!" (əl-Bəqərə, 208).

## Ruh qanunları nur və ədalət qanunlarıdır

Müsəlmanlara gəlincə, hələ də nur qanunlarına, Quranın qoruyub-saxladığı islam missiyasına bağlıdırlar. Hələ də islam missiyası onların könüllərində mövcuddur, hələ də könülləri ona sarılmaq istəyir. Buna baxmayaraq, müsəlmanlar iki şey arasında qalmışlar. Birincisi qəlbləri və vicdanlarına hakim kəsilmiş ali dəyər və prinsiplərdir. Məhz bu dəyər və prinsiplər sayəsində maddiyyat məqsədə çatmağın vasitəsi rolunu oynayır. Məqsəd isə haqq və ədalət üçün zəhmət çəkmək, onları həyata tətbiq etmək, nur prinsiplərini, ali dəyəri reallaşdırmaq naminə həyatı, maddiyyatı, bədəni vasitə seçməkdir. Bunun sayəsində insan özü ilə, maddiyyatla ucalır, maddiyyat xeyirli, mənəvi vasitəyə çevrilir. İkincisi budur ki, onlar Qərb düşüncəsi və anlayışları əsasında maddiyyata sürüklənir, güzəranlıq əldə etmək istəyirlər. Təbii ki, buna onları bioloji-orqanik tələbatları, yaxşı və rahat yaşamaq istəyi sövq edir. Amma maddiyyat ilə əlaqəli prinsipləri və dünyagörüşlərinin qarışıqlığı səbəbindən çəkdikləri zəhmətin məqsəd yoxsa vasitə olduğunu müəyyənləşdirə bilmirlər. Bu üzdən onlar Qərbin müvəffəq "tələbələr"i ola

bilmədilər. Odur ki müsəlmanların maddi inkişafla əlaqəli bütün cəhdləri uğursuz olmuşdur. Hələ də müsəlman xalqları daxili potensial və enerjidən istifadə edə bilmir. Müsəlman xalqların maddiyyatla əlaqəli dünyagörüşləri konkret və açıq-aydın olmalıdır. Unutmayaq ki, islama görə maddiyyat ali mənəvi məqsədləri həyata keçirməyin zəruri vasitəsidir.

Əgər biz kimliyimizi, prinsiplərimizi, vicdanımızı hərəkətə keçirən anlayışları başa düşsək, dərk edəcəyik ki, müsəlmanın vicdanı maddiyyata "hə" deyib, yaşayış ehtiyaclarını məqsəd seçə bilməz. Bu səbəbdən görürük ki, dünyagörüşü və düşüncələrinin qarmaqarışıqlığına, maddiyyata aludəlikdə Qərbin yolu ilə getməsinə, maddiməişət ehtiyaclarını məqsədə çevirməsinə baxmayaraq, heç bir müsəlman vicdanının hökmü ilə maddiyyatın məqsəd olmağı ilə razı deyildir, yəni, müsəlman ümmətinin nəzərində maddiyyat həyatın qayəsi seçilə bilməz. Çünki bu, müsəlmanın əqidəsi, vicdanı, mövcudluq qayəsi ilə üst-üstə düşməyən məsələdir. Müsəlmanlar Qərbi yamsılamada tərəddüd keçirirlər. Nəticədə onların intibah cəhdləri, istehsal etmək və yaratmaq ciddiyyəti müvəffəqiyyətsizliyə uğramışdır. Çünki aydın dünyagörüşü, konkret məqsədlər olmadan güc və əzmkarlıq mümkün deyildir.

Buradan aydın olur ki, müsəlman şəxsiyyət intibaha qədəm basmaq və missiyanı daşımaq istəyirsə, maddiyyata münasibətdə daha ciddi olmalı, mövcud şəraiti nəzərə almalıdır. Belə olduqda ali dəyərlər həyata keçəcək, həyatda öz əksini tapacaqdır. Maddiyyat olmadan həmin

məqsədləri gerçəkləşdirmək, dəyərləri əməli müstəviyə daşımaq mümkün deyildir. Maddiyyat xeyir, haqq, gözəllik ifadə edib nur qanunlarına uyğun gələrsə, inkişafa səbəb olar. Amma özlüyündə məqsədə çevrilib, meşə qanunlarına, zülmə, zorakılığa, təcavüzə, irqçiliyə, şirk və allahsızlığa xidmət edərsə, yer üzündə şər, fəsad, aldadıcı ilğım, ehtiras yaradar. Uca Allah buyurur:

"Hər kəsin (hər ümmətin) üz tutduğu bir qibləsi vardır. (Ey müsəlmanlar!) Yaxşı işlər görməkdə bir-birinizi ötməyə çalışın!" (əl-Bəqərə, 148);

"Əgər onlar verilən nəsihətlərə əməl etsəydilər, əlbəttə, bu onlar üçün daha xeyirli və daha düzgün olardı" (ən-Nisa, 66);

"Siz, ey Davud ailəsi! (Allaha) şükranlıqla itaət edin! (Bu nemətə şükür edin!) Bəndələrimdən (nemətlərimə) şükür edəni azdır!" (Səba, 13);

"Etməyəcəyiniz bir şeyi demək Allah yanında böyük qəzəbə səbəb olar" (əs-Səff, 3).

Allah Təala buyurur:

"Allahın sənə verdiyindən özünə axirət qazan (malını Allah yolunda sərf et). Dünyadakı nəsibini də unutma. Allah sənə (sərvət verməklə) yaxşılıq etdiyi kimi, sən də yaxşılıq et. Yer üzündə fitnə-fəsad törətməyə cəhd göstərmə. Həqiqətən, Allah fitnə-fəsad törədənləri sevməz!" (əl-Qəsəs, 77);

"Özünüz üçün öncə (dünyada) nə yaxşı iş görsəniz, Allah dərgahında onun daha xeyirli və daha böyük mükafatı olduğunu görəcəksiniz" (əl-Müzzəmmil, 20);

"Şübhəsiz ki, Allah etdiyiniz xeyirli işi biləndir" (əl-Bəqərə, 215);

“O gün (qiyamət günü) hər kəs etdiyi yaxşı və pis əməlləri qarşısında hazır görəcək” (Ali-İmran, 30);

“Ölçəndə ölçüdə düz olun, (çəkəndə) düzgün tərəzi ilə çəkin. Bu (sizin üçün) daha xeyirli və nəticə etibarilə daha yaxşıdır!” (əl-İsra, 35).

Allah buyurur:

“Ey iman gətirənlər! Sizə verdiyimiz rüzilərin (təmiz və) halalından yeyin! Əgər Allaha ibadət edirsinizsə, (bu nemətlərə görə) Ona şükür edin!” (əl-Bəqərə, 172);

“Allahın sizə verdiyi halal və pak ruzilərdən yeyin. Əgər Allaha ibadət edirsinizsə, Onun nemətinə şükür edin!” (ən-Nəhl, 114);

“(Ya Peyğəmbərim!) De: “Allahın Öz bəndələri üçün yaratdığı zinəti və təmiz (halal) ruziləri kim haram buyurmuşdur?” De: “Bunlar dünyaya iman gətirənlər üçündür (lakin kafirlər də onlardan istifadə edə bilərlər), qiyamət günündə (axirətdə) isə yalnız möminlərə məxsusdur”. Biz ayələrimizi anlayıb-bilən bir tayfaya belə ətraflı izah edirik.

De: “Rəbbim yalnız aşkar və gizli alçaq işləri, hər cür günahı, haqsız zülmü, Allahın haqqında heç bir dəlil nazil etmədiyi hər hansı bir şeyi Ona şərik qoşmağınızı və Allaha qarşı bilmədiyiniz şeyləri deməyinizi haram buyurmuşdur” (əl-Əraf, 32-33);

“Ondan suyunu və otlağını çıxartdı.

(Orada) dağları yerləşdirdi.

(Bütün bunlar) sizin və heyvanlarınızın istifadəsi üçündür” (ən-Naziat, 31-33);

“Göyləri və yeri yaradan, göydən yağmur endirən, o yağmurla sizin üçün ruzi olaraq (cürbəcür) meyvələr yetişdirən, əmri ilə dənizdə üzmək (yüklərinizi bir yerdən başqa yerə daşımaq) üçün gəmiləri sizə (sizin mənafeyinizə) tabe və çayları sizə ram edən Allahdır!

(Daim öz hədəqəsində, özləri üçün müəyyən olunmuş yerdə) seyr edən Günəşi və Ayı, həmçinin gecəni və gündüzü sizin ixtiyarınıza verən Odur” (İbrahim, 32-33);

“(Ey İnsanlar!) Məgər Allahın göylərdə və yerdə olanları sizə ram etdiyini (sizin istifadənizə verdiyini), aşkar və gizli nemətləri sizə bolluca ehsan etdiyini görmürsünüzmü?” (Loğman, 20);

“(Belə bir vaxtda Allah) sizə sığınacaq verdi, sizə köməklik göstərib müdafiə etdi və təmiz ruzi verdi ki, bəlkə, şükür edəsiniz!” (əl-Ənfal, 26);

“Ey Adəm oğulları! Hər bir ibadət vaxtı gözəl libaslarınızı geyin, yeyin-için, lakin israf etməyin, çünki (Allah) israf edənləri sevməz!” (əl-Əraf, 31).

Əgər müsəlmanlar millətlərin mədəniyyət yarışlarında qalib gəlmək istəyirlərsə, öz baza prinsiplərini olduğu kimi başa düşməli, maddiyyat və məişət ehtiyaclarına haqq mədəniyyətinin qurulmasında, əməkdaşlıq, ədalət, fəzilət, bəşəri həmrəylik cəmiyyətinin formalaşdırılmasında əbədi ali və mənəvi məqsədlərin reallaşdırılması vasitəsi kimi baxmalıdırlar. Əks halda, həyata ciddi nəzərlə baxmayacaq, yaradıcı və islahatçı “xəlifə” olmayacaq, xalqların mədəni yarışmasında qalib gəlməyi, haqq mədəniyyəti qurmağı, nur qanunlarını bərqərar etməyi bacarmayacaqlar.

## Aşkar dünyagörüşügeniş yol və xilasedici kəndir deməkdir

Kimliyindən xəbəri olmayan, qanunlarını və hara gedəcəklərini bilməyən xalqlar və rəhbərləri səhrada yolunu azan şəxsin halını xatırladırlar. Çünki hara gedəcəyini bilmək – yolu tanımaq səhra şəraitində xilas olmaq üçün yeganə ümiddir. Səhralarda həlak olanların əksəriyyəti gedəcəkləri istiqaməti müəyyənləşdirə bilməyən, tərəddüd keçirdikləri üçün tez-tez yol dəyişdirən, bununla da, azma və ölüm dairələri cızan kəslərdir.

Ümmətin dünyagörüşünün aşkar və aydın olmamağı, ziyalılarının Qərbə aşiq olmaları, Qərbə xas hər şeyi şüursuzca, yaxşını pisdən ayırmadan, yamsılama üsulu ilə mənimsəmələri, öz yaxşıları ilə özgənin yaxşılarını[1] seçmədə tərəddüdə düşmələri – bu çaşqınlıq və məchulluq müsəlmanların geri qalmalarının mühüm səbəblərindən birini təşkil edir. Çünki bütün deyilənlər əsasında həyata ciddi baxmaq, onun yollarında əzmkarlıq və qüvvətlə

---

[1] Bir çox dəyər və anlayış, məsələn, həmrəylik məfhumu irqçi və millətçi eqoizm dairəsinə sıxışdırıldıqda destruktiv xarakter alır, insanlıq baxımından isə nəzərdən keçirildikdə pozitiv, konstruktiv məqsədlərə xidmət edir. Əslində həmrəylik qardaşlıq, rəhmdillik, sülh və əmin-amanlıq ifadə edən islam anlayışıdır. İslam məfkurəsi və mədəniyyəti, xüsusən qurumların (parlament sistemi və mexanizmi, hakimiyyət orqanlarının müstəqilliyi, seçkilər və sair) təsis edilməsi mexanizmi və vasitələri məsələsinə əhəmiyyət verməlidir. Bununla yanaşı, mövcud qurumlar, məsələn beynəlxalq səviyyədə sülh və əmin-amanlığı tənzimləyən təşkilatlarda islahatlar aparılmalıdır.

irəliləmək mümkün deyildir. Bu, ümmətin inkişafına ən böyük əngəldir, ondakı islahatçı hərəkatın qarşısında duran ən güclü maneədir. Çünki bu onun imkanlarının üzə çıxmasına, addım atıb qabağa getməyinə, potensialını müəyyənləşdirməsinə əngəl yaradır, bəşəri missiyasını icra etməsinə mane olan "büdrədən daş" rolunu oynayır.

Səmavi islam missiyası Qurani-Kərim və səhih hədislərdə, Allahın vədinə uyğun olaraq, təhrif edilmədən qorunub saxlanmışdır. Bu hələ də belədir. Həmçinin dağıdıcı orqanik vəziyyət almış bəşəriyyət bu günlərdə islamın yolgöstərənliyinə əvvəllər olmadığı qədər möhtacdır. Təbii ki, bu vəziyyət müsəlmanlara daha böyük məsuliyyət yükləyir: onlar təkcə öz vəziyyətlərini yaxşılaşdırmamalı, əvvəlki mədəni-elmi güclərini geri qaytarmaq işi ilə məhdudlaşmamalı, həm də bütün bəşəriyyəti islah edib, xalqları cəngəllik qanunlarının əsarətindən çəkib çıxarmalıdırlar. Vəziyyət düzəldilməzsə, xalqlar özbaşına buraxılarsa, meşə qanunları onların axırına çıxacaq, heyvan təbiətlilik, irqçilik, təcavüzkarlıq yer kürəsini xarabaxanaya çevirəcəkdir. XX əsrdə baş verənlər, XXI əsrdə Qərbin və sionist maraqların törətdiyi qırğın və bəlalar böyük müsibətlərin xəbərçisidir. Həm müsəlmanların, həm də digər xalqların başbilənləri bütün bunları iş işdən keçmədən ciddiyə almalıdırlar.

Müsəlman şəxsiyyət öz bəşəri təbiətini, ruhla palçığın, işıqla qaranlığın, haqla batilin, ədalətlə zülmün ondakı mübarizəsini, iblisin tələlərini, özünü və yer üzünü islahetmə məsuliyyətini yaxşı dərk etməlidir. Bu, özünüislah işində,

Qərb mədəniyyəti və cəngəllik qanunlarının təhlükələrinin dəf edilməsində çox mühüm-dür. Bununla yanaşı, Qərblə müsbət və aktiv münasibətlər yaratmaq, elmi-texnoloji inkişafa nail olmaq, bəşəriyyəti müharibələrə sürükləyən irqçi cəngəllik qanunlarının deyil, nur və ədalət qanunlarının hökm sürdüyü beynəlxalq cəmiyyət qurmaq üçün Qərbdə və Şərqdəki bütün xoşməramlı, sülhsevər tərəflərlə əməkdaşlıq etmək lazımdır.

Müsəlmanlar və səmavi nur qanunlarının davamçıları bilməlidirlər ki, ruhun şəffaflığı və nuraniliyi sayəsində meşə qanunlarının qaranlığı və heyvaniliyi ilə mübarizə içərisindədirlər. Mübarizə işıqla qaranlığın, haqla batilin, ədalətlə zülmün mübarizəsidir. Onlara, ruha və işığa güc lazımdır ki, zülmü, ədavəti dəf edə, haqq və ədalət bayrağını göylərə qaldıra bilsinlər. Meşə qanunlarının davamçıları məhz gücün sayəsində öz maraqlarını, mədəniyyət və dünyagörüşlərini zəif xalqlara qəbul etdirmişlər. Yəni, nur qanunlarının davamçıları xilas olmaq üçün, hər şeydən əvvəl, özlərini islah etməlidirlər. Bunun üçün müsəlman şəxsiyyəti uşaqlıqdan tərbiyə etməyin, yaradıcı, işgüzar, professional, güc və üstünlük vasitələrinə sahib insana çevirməyin yollarını öyrənməliyik. Əgər müsəlman ümməti özünü xilas edə bilərsə, missiyanı icra edən, bəşəriyyəti qurtaran güc və nümunə olmağı da bacaracaqdır.

Ruh və ədalət, deməli, nur qanunları ilə həqir palçıq, şəhvət, zülm və təcavüz qanunları – meşə qanunlarının ortaq cəhəti gücdür. Meşə qanunları maraqları, anlayış və dəyərləri ilə ruh qanunlarının əksidir. Bunun üçün nur qanunlarının da-

vamçıları gücə sahib olmalıdırlar. Çünki güc birbirinə təsir etmək istəyən bütün tərəflərin zəruri vasitəsidir. Amma gücə münasibətdə ruh qanunları meşə qanunlarından fərqlənir. Nur qanunları gücdən haqq və ədalət üçün, meşə qanunları isə zülm və zorakılıq üçün istifadə edir.

Bu gün bəşəriyyətin qanını cəngəllik qanunlarının caynaqları axıdır, bədənini imperialist hegemoniya güclərinin dişləri didib-parçalayır; islam ümmətinin və digər zəif xalqların oğullarının həyata keçirmək istədikləri haqq və ədalət siyasətinə qarşı amansız əks-reaksiyalar özünü göstərir; zalım və müstəbid güclərin Qərb dövlətlərinin siyasi kurslarında hökm sürən irqçi və heyvani abı-havadan irəli gələn amansızlığı xalqları əzir. Biz bu dəhşətli siyasətin dağıdıcı təsirini Fələstində, bir çox müsəlman və qeyri-müsəlman ölkəsində görürük. Bütün bunlar yaşadığımız əsrdə bəşəriyyətin düşdüyü maddi-heyvani səviyyə ilə əlaqədardır. Cəngəllik qanunlarının təhlükəsi və dağıdıcı nəticələri haqqında bəşəriyyətin xəbər tutmağı, öz əvvəlki ruhunu, dəyərləri və qayələrini geri qaytarmaq üçün çalışmağı, zülm və fəsad qanunlarını haqq, ədalət və nur qanunlarını ilə əvəzləməsi, maddi və heyvani mübarizələrin kütləvi qırğın silahları ilə bəşəriyyəti məhv etməsindən əvvəl cəngəllik qanunlarından uzaqlaşmağı o halda mümkündür ki, həqiqi dünya birliyi qurulsun. O dünya birliyi ki, sülh, əmin-amanlıq, haqq, ədalət dəyərlərinə əsaslanan islam nöqteyi-nəzərini qəbul edir. O bu nöqteyi-nəzəri ona görə qəbul etməlidir ki, milli-irqi ayrı-seçkilik və insanları bir-biri ilə mübarizə

aparan vəhşilərə çevirən cəngəllik qanunları əvəzinə, qarşılıqlı yaxşılıq, həmrəylik əsasında dünyanın müxtəlif xalqlarının bəşəri birliyini təmin etsin[1].

Qeyd edək ki, qərblilərin dindən uzaqlaşmalarının səbəbi tapındıqları dinin tarixən təhrif edilməsi, dini qurumların çürüklüyü və korrupsiyaçılığı olmuşdur. Buna görə də Qərbdə xalq kütlələrinin islam və digər səmavi dinlərin əslində nə olmağı barəsində təsəvvürləri yoxdur. Onların bu vəziyyəti əksər siyasət və qərar sahiblərinin vəziyyətindən fərqlənir. Belə ki Qərbdə xalqlara və siyasi sistemlərinə inadkar, mənfəətpərəst şəxslər rəhbərlik edir. Buna görə də, xüsusən, həmin ölkələrin vətəndaşı sayılan müsəlman maarifçilər bu xalqları islama çağırmalı, ilahi ədalət qanunları ilə onların gözlərini açmalıdırlar. Bu da müsəlmanların məsuliyyətini iki qat artırır: öz dinlərini düzgün başa düşməli, onu düzgün təmsil etməli, onunla vəziyyətlərini düzəltməli, onun bəşəriyyətə çatdırılması yollarını optimal vəziyyətə gətirməli, bəşər mədəniyyətinin gedişini dəyişdirməli, dünyanı fəsaddan və dağıdıcı bəlalardan uzaq tutmalıdırlar.

Uca Allah buyurur:

“Allah göylərin və yerin nurudur” (ən-Nur, 35);

---

[1] Ətraflı məlumat üçün bax: Əbdülhəmid əbu Süleyman. İslama görə beynəlxalq münasibətlərin nəzəri əsasları: fikirdə və metodologiyada yeni istiqamətlər // İngilis dilindən ərəb dilinə tərcümə edən: Nasir Əhməd əl-Mürşid əl-Bərrak. Ər-Riyad.

"Artıq Allah tərəfindən sizə bir nur və açıq-aydın bir Kitab gəldi" (əl-Maidə, 15);

"Bu Quran) elə bir kitabdır ki, onu sənə insanları öz rəbbinin izni ilə zülmətlərdən nura – yenilməz qüvvət sahibi, (hər cür) tərifə (şükürə) layiq olan Allahın yoluna çıxartmaq üçün nazil etmişik" (İbrahim, 1);

"Biz göyləri, yeri və onlar arasında olan hər şeyi yalnız haqq-ədalətlə (hər şeyi yerli-yerində, bir-birinə uyğun şəkildə) yaratdıq" (əl-Hicr, 85);

"Biz əmanəti (Allaha itaət və ibadəti, şəri hökmləri yerinə yetirməyi) göylərə, yerə və dağlara təklif etdik. Onlar ona yüklənməkdən qorxub çəkindilər. Ona insan yükləndi. Həqiqətən, o çox zalım, çox cahildir" (əl-Əhzab 72);

"Doğrudan da, rəbbimizin elçiləri haqqı gətirmişdilər" (əl-Əraf, 53);

"Müşriklərin xoşuna gəlməsə də, onu (islamı) bütün dinlərin fövqündə (bütün dinlərdən üstün) etmək üçün Öz Peyğəmbərini doğru yolla və haqq dinlə göndərən Odur!" (ət-Tövbə, 33).

Allah buyurur:

"De: "Rəbbim yalnız aşkar və gizli alçaq işləri, hər cür günahı, haqsız zülmü, Allahın haqqında heç bir dəlil nazil etmədiyi hər hansı bir şeyi Ona şərik qoşmağınızı və Allaha qarşı bilmədiyiniz şeyləri deməyinizi haram buyurmuşdur" (əl-Əraf, 33);

"Əgər haqq onların nəfslərinin istəklərinə tabe olsaydı, göylər, yer və onlarda olanlar (bütün məxluqat) korlanıb gedərdi" (əl-Muminun, 71);

"Bu gün isə yer üzündə nahaq yerə təkəbbür göstərdiyinizə və (Allahın itaətindən çıx-

mış) fasiqlər olduğunuza görə həqarətli əzabla cəzalandırılacaqsınız!" (əl-Əhqaf, 20);

"Allah sizə əmanətləri öz sahiblərinə qaytarmanızı və insanlar arasında hökm etdiyiniz zaman ədalətlə hökm etmənizi əmr edir. Həqiqətən, Allahın bununla (belə bir tapşırıqla) sizə verdiyi öyüd necə də gözəldir! Əlbəttə, Allah (hər şeyi) eşidəndir, görəndir!" (ən-Nisa, 58);

"Həqiqətən, Allah ədalətli olmağı, yaxşılıq etməyi, qohumlara (haqqını) verməyi buyurar, zina etməyi, pis işlər görməyi və zülm etməyi isə qadağan edir. (Allah) sizə düşünüb ibrət alasınız deyə, belə öyüd-nəsihət verir!" (ən-Nəhl, 90);

"Ey iman gətirənlər! Allah qarşısında sabitqədəm və ədalətli şahidlər olun. Hər hansı bir camaata qarşı olan kininiz sizi ədalətsizliyə sövq etməsin. Ədalətli olun. Bu, təqvaya daha yaxındır. Allahdan qorxun. Allah etdiklərinizdən xəbərdardır!" (əl-Maidə, 8);

"Ey iman gətirənlər! (Şahidliyiniz) sizin özünüzün, ata-ananızın, yaxın qohumlarınızın əleyhinə olsa belə, ədalətdən möhkəm yapışan Allah şahidi olun! (Əleyhinə şahidlik edəcəyiniz şəxs) istər dövlətli, istər kasıb olsun, hər halda Allah onların hər ikisinə (sizdən) daha yaxındır. Nəfsinizin istəyinə uyub haqdan üz çevirməyin! Əgər dilinizi əyib büzsəniz və ya boyun qaçırsanız, (bilin ki) Allah etdiyiniz işlərdən xəbərdardır!" (ən-Nisa, 135);

"Rəhmanın (əsl) bəndələri o kəslərdir ki, onlar yer üzündə təmkinlə (təvazökarlıqla) gəzər, cahillər onlara söz atdıqları (xoşlarına gəlməyən

bir söz dedikləri) zaman (onları incitməmək üçün) salam deyərlər.

Onlar gecəni rəbbi üçün səcdə və qiyam (namaz) içində keçirərlər.

Və belə deyərlər: "Ey rəbbimiz! Cəhənnəm əzabını bizdən sovuşdur. Şübhəsiz ki, onun əzabı həmişəlikdir!

Doğrudan da, o, nə pis məskən, nə pis yerdir!"

Onlar (mallarını) xərclədikdə nə israfçılıq, nə də xəsislik edər, bu ikisinin arasında orta bir yol tutarlar.

Onlar Allahla yanaşı başqa bir tanrıya ibadət etməz, Allahın haram buyurduğu cana nahaq yerə qıymaz (onu öldürməz), zina etməzlər. Hər kəs bunu (bu işləri) etsə, cəzasını çəkər.

Qiyamət günü onun əzabı qat-qat olar və (o, əzab) içində zəlil olub əbədi qalar.

Ancaq tövbə edib iman gətirən və yaxşı işlər görənlərdən başqa! Allah onların pis əməllərini yaxşı əməllərə çevirər. Allah bağışlayandır, rəhm edəndir!" (əl-Furqan, 63-70);

"Hər kəs bir kimsəni öldürməmiş (bununla da özündən qisas alınmağa yer qoymamış) və yer üzündə fitnə-fəsad törətməmiş bir şəxsi öldürsə, o, bütün insanları öldürmüş kimi olur. Hər kəs belə bir kimsəni diriltsə (ölümdən qurtarsa), o, bütün insanları diriltmiş kimi olur" (əl-Maidə, 32).

Allah buyurur:

"(Ya Rəsulum!) İnsanların eləsi vardır ki, onun dünya həyatı haqqındakı sözləri sənin xoşuna gələr. O, qəlbində olana da (dili ilə ürəyinin

bir olmasına) Allahı şahid göstərər. Halbuki, o, düşmənlərin ən qəddarıdır.

(O şəxs səndən) ayrılan kimi yer üzündə fitnə-fəsad törətməyə, əkini və nəsli (islam cəmiyyətini) məhv etməyə çalışar. Halbuki, Allah fitnə-fəsadı sevməz!

Ona: "Allahdan qorx!" – deyildiyi zaman lovğalıq onu günah törətməyə vadar edər. Beləsinə cəhənnəm kifayətdir. Ora nə pis məskəndir!" (əl-Bəqərə, 204-206);

"Allahla əhd bağladıqdan sonra onu pozanlar, Allahın birləşdirilməsini əmr etdiyi şeyləri (qohumluq əlaqələrini) qıranlar, yer üzündə fitnə-fəsad törədənlər isə lənətə düçar olacaqlar. Onları pis yurd (Cəhənnəm, o biri dünyanın pislikləri) gözləyir" (ər-Rəd, 25);

"(Ya Peyğəmbər!) Dini (haqq-hesab gününü) yalan hesab edəni gördünmü?

O elə adamdır ki, yetimi itələyib qovar (haqqını verməz);

Və (xalqı) yoxsulu yedirtməyə rəğbətləndirməz.

Vay halına o namaz qılanların ki,

Onlar öz namazlarından qafildirlər;

Onlar (namazlarında) riyakarlıq edər,

Və (xalqa) zəkat verməyi qadağan edərlər" (əl-Maun, 1-7);

"Sizi Səqərə (Cəhənnəmə) salan nədir?"

Onlar deyəcəklər: "Biz namaz qılanlardan deyildik;

Yoxsulu da yedirtməzdik;

Batilə dalanlarla birlikdə biz də dalardıq;

Haqq-hesab gününü yalan sayardıq" (əl-Müddəssir, 42-46);

“Əgər üz döndərsəniz, sizdən yer üzündə fitnə-fəsad törətmək və (Cahiliyyət dövründə olduğu kimi) qohumluq tellərini qırmaq gözlənilməzmi?! Onlar (münafiqlər, fitnə-fəsad törədənlər) Allahın lənət etdiyi (qulaqlarını) kar və gözlərini kor etdiyi kimsələrdir! “ (Mühəmməd, 22-23);

“Allah pis sözün açıq (ucadan) deyilməsini sevməz. Yalnız zülm olunmuş şəxslər müstəsnadır. Allah (hər şeyi) eşıdəndir, biləndir!” (ən-Nisa, 148);

“Şeytan sizi yoxsulluqla qorxudaraq alçaq işlərə sövq edər, Allah isə (əksinə) sizə bağışlanmaq və bərəkət vədəsi verər. Allah (mərhəməti ilə) genişdir. (Allah hər şeyi) biləndir” (əl-Bəqərə, 268);

“(Şeytanla dost olanlar) ədəbsizlik etdikləri zaman: “Atalarımızı belə gördük. Bunu bizə Allah əmr etmişdir”, - deyirlər. (Ya Peyğəmbərim!) De: “Allah ədəbsizlik (yaramaz işlər) əmr etməz. Allaha qarşı bilmədiyiniz şeyimi deyirsiniz?” (əl-Əraf, 28);

“Ey iman gətirənlər! Şeytanın yolunu tutub getməyin! Kim Şeytanın getdiyi yolla getsə, o, (insanlara) çirkin, pis işlər görməyi (zina etməyi, yalan danışmağı, özgələrə böhtan atmağı) əmr edər. Əgər Allahın sizə neməti və mərhəməti olmasaydı, sizdən heç kəs heç vaxt (günahdan) pak olmazdı. Lakin Allah dilədiyini (günahdan) pak edər. Allah (hər şeyi) eşidəndir, biləndir!” (ən-Nur, 21);

“Möminlər arasında (onları nüfuzdan, hörmətdən salmaq məqsədilə) pis söz yaymaq istəyənləri dünyada və axirətdə şiddətli bir əzab gözləyir. (Hamının əməlini, yayılan şayiələrin,

atılan böhtanların doğru olub-olmadığını) ancaq Allah bilir, siz bilməzsiniz!" (ən-Nur, 19);

"(Ya Rəsulum!) De: "Gəlin Rəbbinizin sizə nələri haram etdiyini deyim: Ona heç bir şərik qoşmayın; ata-anaya yaxşılıq edin; kasıblıq üzündən uşaqlarınızı öldürməyin. Sizin də, onların da ruzisini Biz veririk. Açıq və gizlin pis işlərə yaxın düşməyin. Allahın (qətlini) haram buyurduğu cana qıymayın (müsəlman və ya əhli-zimməni haqsız yerə öldürməyin). (Allah) bunları sizə tövsiyə etmişdir ki, bəlkə, düşünüb anlayasınız!" (əl-Ənam, 151);

"(Ey möminlər!) Sizinlə vuruşanlarla siz də Allah yolunda vuruşun, lakin həddən kənara çıxmayın. Allah həddi aşanları sevməz!" (əl-Bəqərə, 190);

"(Ey müsəlmanlar!) Sizə nə olub ki, Allah yolunda (hicrət etməyib, yaxud əsir kimi Məkkədə qalıb): "Ey Rəbbimiz, bizi əhalisi zalım olan bu şəhərdən (Məkkədən) kənara çıxart, bizə öz tərəfindən mühafizəçi göndər, yardımçı yolla!" – deyə dua edən aciz kişilər, qadınlar və uşaqlar uğrunda vuruşmursunuz?" (ən-Nisa, 75);

"Allah din yolunda sizinlə vuruşmayan və sizi yurdunuzdan çıxartmayan kimsələrə yaxşılıq etməyi və onlarla ədalətlə rəftar etməyi sizə qadağan etməz. Allah ədalətli olanları sevər!" (əl-Mümtəhinə, 8);

"Ya Davud! Biz səni yer üzündə xəlifə (və ya əvvəlki peyğəmbərlərə xələf) etdik. Buna görə də insanlar arasında ədalətlə hökm et, nəfsdən gələn istəklərə uyma, yoxsa onlar səni Allah yolundan sapdırar. Şübhəsiz ki, Allah yolundan sapanları

haqq-hesab gününü unutduqları üçün şiddətli bir əzab gözləyir!

Biz göyü, yeri və onların arasında olanları (bütün məxluqatı) boş-boşuna yaratmadıq. Bu, kafirlərin zənnidir. Vay cəhənnəm odunda yanacaq kafirlərin halına!

Yoxsa Biz iman gətirib yaxşı işlər görənləri yer üzündə fitnə-fəsad törədənlərlə eyni tutacağıq?! Yaxud Allahdan qorxub pis əməllərdən çəkinənləri günahkarlara tay edəcəyik?!" (Sad, 26-28);

"Kafir olanlar cəhənnəm oduna göstəriləcəkləri gün (onlara məzəmmətlə belə deyiləcəkdir): "Siz dünyada həyatınızda (bütün nemətləri görüb daddınız və onlardan ləzzət aldınız. Bu gün isə yer üzündə nahaq yerə təkəbbür göstərdiyinizə və (Allahın itaətindən çıxmış) fasiqlər olduğunuza görə həqarətli əzabla cəzalandırılacaqsınız!" (əl-Əhqaf, 20);

"Ey insanlar! Biz sizi bir kişi və bir qadından (Adəm və Həvvadan) yaratdıq. Sonra bir-birinizi tanıyasınız (kimliyinizi biləsiniz) deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Allah yanında ən hörmətli olanınız Allahdan ən çox qorxanınızdır (pis əməllərdən ən çox çəkinəninizdir). Həqiqətən, Allah (hər şeyi) biləndir, (hər şeydən) xəbərdardır" (əl-Hucurat, 13);

"İman gətirib imanlarını zülmə qatışdırmayanlar əmin-amanlıqdadırlar. Haqq yola yönəlmişlər də onlardır!" (əl-Ənam, 82).

Uca Allah buyurur:

"(Ya Rəsulum!) Rəbbinin sözü düzgün və ədalətli şəkildə tamam oldu. Onun sözlərini

dəyişdirə biləcək bir kimsə yoxdur. O, (hər şeyi) eşidəndir, biləndir!

Əgər yer üzündə olanların çoxuna itaət etsən, onlar səni Allahın yolundan azdırarlar. Onlar ancaq zənnə uyar və ancaq yalan danışarlar!" (əl-Ənam, 115-116);

"Sonra insanlar Allahın – özlərinin həqiqi ixtiyar sahibinin hüzuruna qaytarılar. Bilin ki, hökm Onundur (Allahındır) və O, ən tez haqq-hesab çəkəndir!" (əl-Ənam, 62);

"De: "Mən rəbbimdən açıq-aydın bir dəlilə (Qurana) istinad edirəm. Siz isə onu yalan hesab etdiniz. Sizin tələm-tələsik istədiyiniz (ilahi əzab) məndə (mənim əlimdə) deyildir. Hökm ancaq Allahındır. Haqqı yalnız O bəyan edər. O (haqla batili) ayırd edənlərin ən yaxşısıdır!" (əl-Ənam, 57).

## Səmərəli münasibət qurmağın sirri: metodoloji bilik və Qərbi öyrənmə mərkəzləri

Qərb digər xalqları öyrənmək məqsədi ilə şərqşünaslıq qurumunu təsis etmişdir. Amma bu cəngəllik qanunlarının təsiri ilə, həmin xalqları talamaq üçün baş vermişdi. Bu səbəbdən Qərb bu xalqların bəzisini məhv etmək, bəzisini də müstəmləkə altına salmaq üçün onları öyrənirdi. Əsas məqsəd Şərq xalqlarını əsarətdə saxlamaq, Qərbin maraqlarına tabe etmək idi.

Müsəlman xalqları, mütəfəkkir və ziyalıları naqislik, acizlik və arxayınlıqdan əl çəkməli, öz

ölkələrində islahatçı inkişaf metodları əsasında Qərbi, Qərb fikrini, mahiyyəti və prinsiplərini öyrənən elmi tədqiqat mərkəzləri, qurumlar, şöbələr, akademik dərəcələr təsis etməlidirlər. Bəlkə, bundan sonra Qərbi başa düşmək, onunla səmərəli münasibət qurmaq, Qərb mədəniyyətini bütün xalqların xeyrinə olacaq istiqamətə yönəltmək mümkün olsun. Ələlxüsus o xalqların ki, millətçi, irqçi cəngəllik qanunlarının hökmü altındadırlar. Kütləlxəri aldadan, millətçi-irqçi birliklər, federasiyalar tərəfindən istismara zəmin hazırlayan qərəzli informasiya maşınları, media yalanları bu işdə fəallıq göstərir. Bu millətçi və müstəmləkəçi birliklərin formalaşdırdığı qorxulu "buludlar" millətlərin başının üstünü alır, İslam dünyasını, Afrikanı bürüyür, bu coğrafiyaları böldükcə bölür. Amerika birliyi, Avropa Birliyi, Rusiya, Hindistan və Çin birliyi parçalanmış Müsəlman dünyasına və Afrikaya şikar gözü ilə baxır. Ovçu bəzən şikardan – Müsəlman dünyasından ov köpəyi rolunu oynamağını istəyir. Müsəlman dünyasında Qərbdən imperialist zülm və təcavüzdən xali ədalətli siyasət yürütməyi gözləyirlər. Amma yanılırlar. Təbliğat və diplomatik vasitələrin təsiri müvəqqəti və məhduddur, müasir beynəlxalq münasibətlərin gedişində nəzərə alınmır. İndiki dövrdə həmin dövlətlərin siyasi kurslarına dinc formada təsir edəcək yeganə amil bu dövlətlərin vətəndaşı sayılan müsəlmanların və onlara dəstək verəcək vicdan sahibi, hələ də ilahi qanunlara inanan digər insanların siyasi təşəbbüsləri ola bilər.

Bəşəriyyəti iki dünya müharibəsinə sürükləmiş cəngəllik qanunları hansı isə qrupa xeyir toxundurmaqdan çox bütün bəşəriyyəti təhlükə altına salır. Həmçinin bu qanunlarla dünyanı idarə edənlərin Müsəlman dünyasının, Afrikanın başına nələr gətirdiyini sərf-nəzər etməmək lazımdır.

Müsəlmanlar nə edəcəklərini öyrənərlərsə, islahatçı addımlar özünü doğruldarsa, Qərbdə Allaha çağırma əzmkarlıqları sağlam əsaslarla artarsa, ola bilsin ki, qəlblərdə hələ də qalıb itməyən iman, sağlamlığını qoruyan fitrət orada nur qanunlarının bərqərar olmağını təmin edib bu xalqları işıqlı və ədalətli yola qaytarmağa köməklik göstərsin. Bu, Allah üçün çətin deyildir. Özünü azad etmək, hüquqlarını, hörmət-izzətini geri qaytarmaq, bəşər mədəniyyətinin çiçəklənməsində pay sahibi olmaq üçün Müsəlman dünyası və Afrika öz ayaqları üzərində dayanmalıdır.

Malayziya Beynəlxalq İslam Universiteti bu istiqamətdə ilk addımlarını atmağa başlamışdır. Qeyri-ixtisas qərbşünaslıq fənnini təsis etməklə aidiyyəti şöbə yaratmaq Qərbi, fikri və əsas prinsiplərini öyrənmək, onunla müsbət münasibətdə olmaq yollarını müəyyənləşdirmək məqsədi daşıyır. Bunda başlıca qayə isə haqqa, ədalətə, konstruktiv həmrəyliyə əsaslanan bəşəri ortaqlığı, inteqrasiyanı təmin etməkdir. Ümid edirəm ki, universitet bundan sonra qərbşünaslıq üzrə şöbə, proqram və tədqiqatlar mərkəzi yaratmaq işlərini tamamlayacaqdır.

Ümid olunur ki, universitetin fəaliyyət planı təkmilləşdirilsin, İslam dünyasındakı digər universitetlər Malayziya Beynəlxalq İslam Uni-

versitetinin yolu ilə getsin, bu universitetlərdə qərbşünaslıq sahəsi üzrə proqramlar və elmi-tədqiqat mərkəzləri yaradılsın. Yaradılsın ki, mədəniyyətlərarası toqquşma və mübarizə deyil, dialoq və inteqrasiya üçün sağlam və aktiv baza formalaşsın.

"Dində məcburiyyət yoxdur. Artıq doğruluq (iman) azğınlıqdan (küfrdən) ayırd edildi. Hər kəs Tağutu (Şeytanı və ya bütləri) inkar edib Allaha iman gətirsə, o, artıq (qırılmaq bilməyən) ən möhkəm bir ipdən (dəstəkdən) yapışmış olur. Allah eşidəndir, biləndir!" (əl-Bəqərə, 256);

"(Ya Rəsulum!) İnsanları hikmətlə, gözəl öyüd-nəsihət ilə rəbbinin yoluna (islama) dəvət et, onlarla ən gözəl surətdə mübahisə et. Həqiqətən, rəbbin yolundan azanları da, doğru yolda olanları da daha yaxşı tanıyır!" (ən-Nəhl, 125);

"Allah din yolunda sizinlə vuruşmayan və sizi yurdunuzdan çıxartmayan kimsələrə yaxşılıq etməyi və onlarla ədalətlə rəftar etməyi sizə qadağan etməz. Allah ədalətli olanları sevər!

Allah sizə ancaq sizinlə din yolunda vuruşan, sizi yurdunuzdan çıxardan və çıxartmağa kömək edən kimsələrlə dostluq etmənizi qadağan edər. Onlarla dostluq edənlər əsl zalımlardır!" (əl-Mumtəhinə, 8-9);

"Ey iman gətirənlər! Allah qarşısında sabitqədəm və ədalətli şahidlər olun. Hər hansı bir camaata qarşı olan kininiz sizi ədalətsizliyə sövq etməsin. Ədalətli olun. Bu, təqvaya daha yaxındır. Allahdan qorxun. Allah etdiklərinizdən xəbərdardır!" (əl-Maidə, 8);

“(Ey möminlər!) Sizinlə vuruşanlarla siz də Allah yolunda vuruşun, lakin həddən kənara çıxmayın. Allah həddi aşanları sevməz!” (əl-Bəqərə, 190).

## Yenidən başlamaq: iman nuru, məşvərət yolu, qardaşlıq gücü

Müsəlmanlar başa düşməlidirlər ki, azadlıq, məşvərət, tolerantlıq, islam qardaşlığı, bəşəri qardaşlıq, ifadə və inanc azadlığı dəyərlərinə ehtiyacları vardır. İnsan hüquqlarının pozulması, despotizm, zülm, irqçilik dəyərlərinin özünə yer etməsi müsəlmanların dağınıqlığını, geriliyini, aralarındakı ədavəti daha da artırır, mədəniyyətini korlayır, elmi düşüncəsini sıradan çıxarır, Müsəlman dünyasında xurafat və mövhumat yayır. Nəticədə qorxu və qorxaqlıq hissləri möhkəmlənir, kölə zehniyyəti bərqərar olur. Buna görə də ümmət tövhid prinsipini, varislik (xəlifəlik) anlayışını əsas götürməklə, ədalət və bəşərin kök birliyindən çıxış etməklə, azadlıq, məşvərət, tolerantlıq, qardaşlıq dəyərlərini, şücaət, təşəbbüs, dürüstlük, etibar keyfiyyətlərini geri qaytarmaqla yenidən hazırlıqlı vəziyyətə nail ola bilər. Belə olarsa, əvvəlki gücünü, birliyi və stabilliyini geri qaytaracaqdır. Bu da imkan verəcəkdir ki, nümunəvilik və müdrikliklə xeyrə, sülhə aparan, ən yaxşı şəkildə işığa, əmin-amanlığa çağıran rəhbər rolunu oynasın, sahib olduğu güc-qüvvət sayəsində haqqı qoruyub zəiflərə arxa çıxsın.

## Heç də hər sualın cavabı yoxdur

İnsanda ruh və materiya nə üçündür? Onların arasındakı bu mübarizənin mənası nədən ibarətdir? O mübarizənin ki, bir tərəf yaxşı əməlləri ilə mənəvi paklığa, ölməz həyata nail olur, digər tərəf isə cinayətlərinə görə bədbəxtliyə və əbədi cəhənnəmə yuvarlanır. Nəfsi istəklərə qarşı apardığı savaşda ruhların zəhmət çəkdiyi bu mübarizənin mənası nədən ibarətdir? Yaradılmış varlığın azad iradəsi necə ola bilər? Bütün bu suallara cavab vermək asan deyildir. Amma bilirik ki, çəkilən bu zəhmət sayəsində insanlar nəfslərini tərbiyə edir, nura sarılaraq haqqa doğru gedirlər. Onu da bilirik ki, yaradılmış, məntiqi məhdud insan müstəqil şəkildə həyatın mahiyyətini anlamağa, ilahi işıq və yolgöstərənlik olmadan ali məqsədlərini dərk etməyə qadir deyil. Məhz ilahi yolgöstərənlik ona məsuliyyət aşılayır, mövcudluğunu şərtləndirən məqsədləri reallaşdırma yollarını öyrədir. İnsan bütün bunları şüurunun dərinliklərində, mahiyyətinin ənginliyində hiss edir. Bu səbəbdən insan ağıl və hikmətlə ilahi yolgöstərənliyə, ilahi qanunlara riayətə can atmalıdır. Atmalıdır ki, həyatda pozitiv məsuliyyət sahibi olsun, haqq, ədalət və rəhmdillik dəyərləri əsasında ona çağırsın.

## İnsanın dünya həyatının mənası: nur dəyərlərini tətbiq etməklə maddiyyatın fövqünə qalxmaq

Yuxarıda göstərilmiş suallara insan oğlu bildi-bilmədi cavablar axtarır. Onu da deyək ki, belə problemlər bəşəri məntiqlə qavranılmaqdan uzaq görünür. Buna baxmayaraq, bəzi məsələləri izah edə bilərik. Məsələn, ruh və materiyanın insanda birləşməsi və bundakı məqsədi götürək. Məhz bu insanı işıqla qaranlığın, hidayət və zəlalətin, xeyir və şərin, itaət və asiliyin, ruh və materiyanın, təmizlik və murdarlığın mübarizə apardığı meydana çevirmişdir. Biz bu mübarizə və birləşmə vasitəsi ilə işıq, haqq və ədalətin palçıqmənşəli materiyada necə əks olunduğunu, anlayışların insan gözündə analoji maddi həqiqətlərə necə çevrildiyini, palçığın xeyir, haqq, gözəllik anlayışlarını necə təcəssüm etdirdiyini, qəlbləri əsir edən, ağılları kilidləyən maddi formalarda necə təzahür etdirdiyini görürük. Beləliklə, həmin anlayışlar təmizlik, yaradıcılıq və gözəllik formasında materiyaya sirayət edir. Biz bu birləşmə vasitəsilə görürük ki, nur, haqq, ədalət və mərhəmət məfhumları konkret maddi forma alır, bununla da, materiya, palçıq ali formalara intiqal edir. İntiqal edirlər ona görə ki, nur, haqq, ədalət və gözəllik anlayışlarına bürünmüşlər. Beləliklə, onlar insan həyatı və fəaliyyətinin konkret reallığına çevrilə bilirlər. Nur, ruh və palçığın "birləşməsi" ilə konkret xeyir və gözəllik formaları təzahür edir. İnsan

nəfsinə xoş gələn belə konkret təzahürlərdən biri də gözəllik formalarıdır. Materiya və palçıqda əks olunmuş bu formalarla həqir və sönük palçıq gözəlliyə bürünür, müxtəlif gözəl təzahürlər (cisimlər, rənglər, güllər, quşlar, bağlar, nəhayət, ən ali gözəllik forması – insan) meydana çıxır. Çünki insan ilahi və nurani ruhun üfürülməsinin nəticəsidir. Əgər biz ən gözəl cisimlərə, ən gözəl cizgilərə, ən gözəl bəbəklərə diqqətlə baxsaq, onların mahiyyətində həqir palçığa həkk edilərkən meydana çıxan məna və məzmun görəcəyik. Və bu gözəllik bizi valeh edəcəkdir. Bu gözəl formaları, bəbəkləri, cisimləri diqqətlə müşahidə etsək, başa düşəcəyik ki, onlar elə cizgilər, elə mahiyyətlərdir ki, həmin cisim və şeylər materiya və palçıqda təcəssümünü tapmasaydı, onları dərk edə bilməzdik. Belə ki gözəllik cizgiləri yox olduqda bu gözəl cisimlər qoxuyan palçığa, artığa, torpağa çevrilir.

İşıqla qovuşan, mahiyyətini xeyir, haqq və gözəllikdə əks etdirən palçıq nə gözəldir! Materiya və palçıqda təcəssüm edən, görünən nur nə gözəldir! Bu vaxt haqq qələbə çalır, ətrafa hakim olur, gözəllik üzə çıxıb parlayır, işıq əks olunub bərq vurur, bununla da, insanın ürəyində olanlar heyvanilikdən xali olur, ruhunu örtən (bədən də) palçıqdan uzaqlaşıb paklanır.

## Sizə yalnız cüzi bilik verilmişdir

Ruh və materiyanın birgəliyinin ən ali mənası nədən ibarətdir? Bunda məqsəd nədir? İnsanda

və iradəsində bu iki tərəfin bir-biri ilə apardığı mübarizənin mahiyyətini necə başa düşməliyik? Ruhları Allaha yönəldən, insanı itaətə sövq edən, heyvani ehtirası tənzimləyən bu təcəssümdən[1] nə meydana çıxır? Şübhə yox ki, bütün bunlar – biliklərimiz çərçivəsində gəldiyimiz qənaət budur – qeybə aid məsələlərdir, insan məntiqinin bu dünyada dərk edə bilməyəcəyi yaradılış sirləridir.

"De: "Yer üzünü gəzib (Allahın) məxluqatı (ilk əvvəldən) nə cür yaratdığına baxın" (əl-Ənkəbut, 20);

"Səndən ruh haqqında soruşarlar. De: "Ruh rəbbimin əmrindədir. Sizə (bu barədə) yalnız cüzi (az) bir bilik verilmişdir!" (əl-İsra, 85);

"Biz göyləri, yeri və onların arasında olanları oyun-oyuncaq yaratmadıq!

Biz onları yalnız haqq olaraq yaratdıq, lakin onların əksəriyyəti bilməz!" (əd-Duxan, 38-39);

"Mən cinləri və insanları yalnız Mənə ibadət etmək üçün yaratdım!

(Ya Peyğəmbər! De onlara:) "Mən onlardan ruzi istəmirəm. Mən onlardan məni yedirtmələrini də istəmirəm!

Şübhəsiz ki, ruzi verən də, qüvvət sahibi də, yenilməz olan da Allahdır!" (əz-Zariyat, 56-58)[2];

---

[1] Ruhun bədəndə, yəni nurun palçıqda təcəssümü nəzərdə tutulur – ***tərcüməçinin qeydi.***

[2] Ayədəki ibadət sözü "bəndə olmağı istəmək" felindən deyil, "(özünü) bəndə etmək" felindən yaranıb. Mömin özünü Allaha qul, bəndə edəndir. Məhz bununla mömin insan hörmət-izzət əldə edir, alçalmır, zillətə düşmür. "Halbuki şərəf-şan da, (qüvvət və qələbə də) yalnız Allaha, Onun peyğəmbərinə və möminlərə məxsusdur" (əl-Münafiqun, 8).

“Biz göyü, yeri və onlar arasında olanları oyun-oyuncaq yaratmadıq.

Əgər Biz (Özümüzə) əyləncə etmək (arvad-uşaq düzəltmək) istəsəydik, onu mütləq Öz dərgahımızdan (mələklərdən, hurilərdən) edərdik. Lakin Biz (bunu) etmədik” (əl-Ənbiya, 16-17);

“Allah hər kəsi yalnız qüvvəsi yetdiyi qədər yükləyər (bir işə mükəlləf edər). Hər kəsin qazandığı yaxşı əməl də, pis əməl də özünə aiddir” (əl-Bəqərə, 286);

“Sən paksan, müqəddəssən! (Bütün eyib və nöqsanlardan kənarsan!) Sənin bizə öyrətdiklərindən başqa biz heç bir şey bilmirik. (Hər şeyi) bilən Sən, hikmət sahibi Sənsən” (əl-Bəqərə, 32);

“Artıq bu gün gözündən pərdəni götürdük. Sən bu gün sərrast görürsən!” (Qaf, 22).

Yaradılışın mahiyyəti və məqsədlərinə dair bu düşüncələr dəlil-sübut olmadan, ağılı hər şeyi öyrənən universal vasitə kimi təqdim edərək qeyb aləminə zənn və gümanla dalan sxolastika oyunu deyildir. Məhz bundan ümmət həm keçmişdə, həm də indi bəzi kəlam labirintlərində əziyyət çəkmişdir. Bəlkə də, İmam Əbu Hamid əl-Qəzalinin “Filosofların tutarsızlığı” kitabında nəzərdə tutduğu elə budur.

İnsan ağlı və məntiqinin məhdudluğunu dərk etməklə yanaşı, sistematik düşünməyi bacarmaq mənim təsəvvürümdə dindarlığın ciddiyyətini göstərir, imanı möhkəmləndirən üsul kimi çıxış edir. İbn Rüşd özünün “Filosofların tutarsızlığı” (kitabının) tutarsızlığı” kitabında bunu nəzərdə tutaraq, imanı möhkəmləndirmək, peyğəmbərliyi başa düşmək, elm və bilik dairəsini genişləndirmək

üçün ağılla, dərrakə ilə düşünməyin zəruriliyi haqqında danışmışdır.

Hər bir halda, Qurani-Kərim və Pak Sünnə qeyb aləmi haqqında yəqin biliklərin mənbəyidir. Onlar həm də müsəlman fərdə yol göstərəcək düşüncələrin mənbəyi rolunu oynaya bilərlər:

"(Allah:) "Məgər inanmırsan?" – buyurmuşdu. (İbrahim:) "Bəli, inanıram, lakin ürəyim sakit (xatircəm) olmaq üçün (soruşdum)", – deyə cavab vermişdi" (əl-Bəqərə, 260).

Ümid edirəm ki, bu kitabça: a) müsəlman ümmətinin mahiyyətini, məqsəd və istiqamətlərini, islahatçı cəhdlərinin əhəmiyyətini; b) kainat və vəhyi, biliyin üç mənbəyini: vəhy, ağıl və kainatı vəhdətdə götürməyin zəruriliyini; c) müsəlmanların nur şəriətinin varlıq aləmində obyektiv gerçəkliyi təmsil edən, tövhid və bəşəriyyətin mənşəcə birliyi prinsipinə söykənən dəyişməz qaydalarını əsas götürmələrinin vacibliyini bir az da olsa izah edəcəkdir.

Ona da ümid edirəm ki, kitabça ümumən insanların, xüsusən müsəlmanların Qərbi: məfkurəsini, məqsəd və istiqamətlərini, cəngəllik qanunlarına əsaslanan siyasi kursunu başa düşmələrini təmin edəcəkdir. Qərb Asiya, Afrika, Latın Amerikası və İslam dünyasındakı "başqalar"ı ilə məhz bu qanunlar əsasında davranır. Bu qanunlar irqçilik və ayrı-seçkiliyə əsaslanır, güclünü haqlı sayır, bioloji instinktlərin doğurduğu ehtirasın təmin edilməsini məqsəd bilir, həqiqətə mövcud olmayan subyektiv məsələ kimi baxır. Ehtiras, acgözlük, tamahkarlıq cəngəllik qanunlarını təsdiqləyir. Qərb öz məqsədlərinə çatmaq üçün zülm və təcavüzdən çəkinmir. Düzdür, qəlbdə ibtidai for-

mada qərar tapan haqq, ədalət, mərhəmət anlayışları bəzən yumşalma gətirir, amma heyvaniliklə şeytan qovuşanda, fitrət korşalanda şər şərliyində qalır. İsrail dövlətinin Fələstində fələstinlilərin başına gətirdikləri buna misaldır. Beləliklə, şər, zülm, qəddarlıq, dağıdıcılığın bütün formaları insan həyatını, müxtəlif xalqların davranışlarını tənzimləyən xeyir, ədalət və mərhəmət anlayışlarındakı ruh və nurun məzmununu sərf-nəzər edir.

## Və... Ümmətin öz rolu vardır

Belə çətin dövrdə bu kitabçanı yazmaqda məqsəd ümmətin düşünən beyinlərinə fəaliyyət və dünyagörüşü bələdçisi təqdim etməkdir. Onlar ümmətə istiqamət vermədə rol oynaya bilərlər. Bu rol xırda-para işlərin, mübahisə və çəkişmələrin arasında itib-batmışdır. Müsəlmanlar elə edə bilərlər ki, ümmət mövcudluğunun mənasını başa düşsün, sağlam dünyagörüşünə sahib olsun, gücünü və əzmkarlığını geri qaytarsın, hara və necə gedəcəyini yaxşı bilsin, yolunu və məqsədini bilənlər iş başına keçsin. Bununla yanaşı, onlar xüsusən Qərbdə meşə qanunları ilə idarə edilən xalqlara özlərini dərk etmələrinə, azdıqları yoldan geri qayıtmalarına kömək etməlidirlər. Belə olarsa, həmin xalqlar həm özlərinə, həm də bəşəriyyətə acıyaraq təcavüz və zülmə son qoyacaqlar. Nəticədə nur qanunlarının, ədalət, əmin-amanlıq, sülh dəyərlərinin bütün dünyada bərqərar olmağı üçün həm onlar, həm də bəşəriyyət meşə qanunları boyunduruğundan xilas olaraq rahat nəfəs alacaqdır.

# Mündəricat


Giriş . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . 3
Kamil fəlsəfə yəqinlik deməkdir . . . . . . . . . . 5
Elm yetkin olmalıdır . . . . . . . . . . . . . . . . . 8
Bitkin elm iman doğurur . . . . . . . . . . . . . . 11
Problemin qoyuluşu . . . . . . . . . . . . . . . . . 17
Heyvanların mahiyyəti:
ruhu olmayan torpaqmənşəli həyat . . . . . . . . . . 21
İnsan işıq və palçıqdır: əbədi həyat . . . . . . . . . . 27
Materializm meşə qanunları, zorakılıq
və zülm deməkdir . . . . . . . . . . . . . . . . . . . 37
Güclü haqlıdır – müstəmləkəçi,
irqçi və materialist Qərb nöqteyi-nəzəri . . . . . . . . 41
Müstəmləkəçilik və faşizmin qəddarlığı:
şeytanla heyvanın birgəliyi . . . . . . . . . . . . . . 45
Ruh qanunları nur və ədalət qanunlarıdır . . . . . . 53
Aşkar dünyagörüşü geniş yol
və xilasedici kəndir deməkdir . . . . . . . . . . . . . 58
Səmərəli münasibət qurmağın sirri:
metodoloji bilik və Qərbi öyrənmə mərkəzləri . . . . 70
Yenidən başlamaq: iman nuru, məşvərət yolu,
qardaşlıq gücü . . . . . . . . . . . . . . . . . . . . . 74
Heç də hər sualın cavabı yoxdur . . . . . . . . . . . . 75
İnsanın dünya həyatının mənası: nur dəyərlərini
tətbiq etməklə maddiyyatın fövqünə qalxmaq . . . . 76
Sizə yalnız cüzi bilik verilmişdir . . . . . . . . . . . . 77
Və... Ümmətin öz rolu vardır . . . . . . . . . . . . . . 81

CBS POLYGRAPHIC PRODUCTION
mətbəəsində çap olunub

İDRAK